# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 fevral 2026-cı il, çərşənbə
№ 026 (7093)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# ABŞ-ın vitse-prezidenti Bakıda



# Azərbaycan ABŞ-ın strateji tərəfdaşı oldu...



Bax səh. 2

## Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalandı

### Milli Məclisin iclasında... 12 qanun layihəsi müzakirə olunub

Bax səh. 4

### 1,1 milyon vətəndaşı əhatə edən sosial qərar

Bax səh. 5

### Minimum əməkhaqqı məbləğinə hər il baxılacaq

Bax səh. 5

### "Bujival" razılaşmasına qarşı "Kanaki sazişi"...

Bax səh. 6

### Yazılmamış epopeyanın xülasəsi

Bax səh. 7

# ABŞ-ın vitse-prezidenti Bakıda

# Azərbaycan ABŞ-ın strateji tərəfdaşı oldu...






## Rəsmi qarşılanma mərasimi

Fevralın 10-da Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Ceyms Devid Vensin rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ABŞ-ın Vitse-prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Ceyms Devid Vensi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Vitse-prezident Ceyms Devid Vensə raport verdi.

Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Vitse-prezident Ceyms Devid Vensə, Amerika Birləşmiş Ştatları nümayəndə heyətinin üzvləri isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Ceyms Devid Vensin qarşısından keçdi.

Sonda rəsmi foto çəkdirildi.

***

Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Ceyms Devid Vens ilə məhdud tərkibdə görüşü olub.

## Son altı ayda baş verənlərə yüksək dəyər veririk

Sonra Fevralın 10-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə geniş tərkibdə görüşü keçirilib.

**Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:** Hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Amerika Birləşmiş Ştatlarının Vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmək bizim üçün böyük şərəfdir. Biz elə indicə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, həmçinin regional inkişafı müzakirə etdik. İndi biz daha geniş kontekstdə dialoqumuzu davam etdirəcəyik.

Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir. Bu gün tərəfdaşlığımız rəsmi şəkildə daha yüksək səviyyəyə qalxacaq. Fəaliyyətin həcmi və komandalarımız arasında qarşılıqlı əlaqələr həqiqətən yüksəksəviyyəli tərəfdaşlıq ruhunu nümayiş etdirir.

Sizə yaxşı vaxt keçirməyi arzulayıram və əminəm ki, səfər bizim güclü əməkdaşlığımıza daha bir töhfə olacaq. Bir daha xoş gəlmisiniz.

***



**Vitse-prezident Cey. Di. Vens dedi:** Çox gözəl. Prezident Əliyev, bizi qəbul etdiyinizə görə Sizə və Sizin komandanıza təşəkkür edirəm. Burada ABŞ Hökumətinin ən parlaq nümayəndələrindən bəziləri əyləşib. Prezidentimiz Sizə öz salamlarını, xoş arzularını çatdırır və tərəfdaşlığınız üçün Sizə minnətdardır. Azərbaycan və Ermənistan arasında Prezident Trampın vasitəçilik etdiyi sülh razılaşması düşünürəm ki, onun vasitəçiliyi ilə olan yeddinci və ya səkkizinci sülh razılaşmasıdır. Bilirəm ki, Prezident Tramp bununla çox qürur duyur, çünki o, Sizin ölkənizə, həm də Ermənistana heyrandır. Əfsuslar olsun ki, sonuncu administrasiya bir çox səhvlərə yol verdi. Onların yol verdikləri səhvlərdən biri Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik. Buna görə mən çox minnətdaram.

Bilirəm ki, o, aranızdakı tərəfdaşlığa və dostluğa, rəhbər heyətlər və administrasiyalarımız arasında münasibətlərə görə çox minnətdardır. Burada olmaq çox xoşdur. Düşünürəm ki, bizim çox maraqlı söhbətlərimiz olacaq. Əlbəttə ki, biz Strateji Tərəfdaşlıq Xartiyasını imzalayacağıq və mən bunu səbirsizliklə gözləyirəm.

Bu, ötən il bir çox nailiyyətləri olan dostlar arasında baş tutan yaxşı bir görüşdür və hesab edirəm ki, növbəti üç ildə biz daha çox nailiyyət qazanacağıq. Bizi qəbul etdiyiniz üçün təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

***

ABŞ-ın Vitse-prezidenti sülh gündəliyinin irəli aparılmasında Prezident İlham Əliyevin nümayiş etdirdiyi liderliyi vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxundu.

Cey. Di. Vens Azərbaycanda hökm sürən tolerant mühiti qeyd edərək, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi sülh və dostluq şəraitində yaşadığını vurğuladı.

Söhbət zamanı TRIPP nəqliyyat dəhlizinin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycanla ABŞ arasında siyasət, iqtisadiyyat, ticarət, yüksək texnologiyalar, süni intellekt, data mərkəzlərinin yaradılması və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

***

Fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi keçirilib.

Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens imzalayıblar.

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.



## Regionda sülh sahəsində əldə olunmuş nəticələr gücləndirilir

**Prezident İlham Əliyevin bəyanatı**

-Hörmətli cənab Vitse-prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Cənab Vitse-prezidenti Azərbaycanda rəsmi səfərdə salamlamaq bizim üçün böyük şərəfdir. Bu gün bizim ikitərəfli gündəliyin bir çox məsələlərini əhatə edən əla söhbətimiz oldu. Biz Azərbaycana çox müsbət münasibətə görə Tramp-Vens administrasiyasına olduqca minnətdarıq. Strateji Tərəfdaşlıq haqqında Xartiyanın bu gün imzalanması mərasimi heyətlərimizin altı ay ərzində gördüyü çox gərgin işin təzahürüdür. Altı ay əvvəl Prezident Trampla Vaşinqtonda tarixi görüş və Strateji Tərəfdaşlıq haqqında Xartiyanın tərtib edilməsi üçün işçi qrupunun yaradılması haqqında sənədin imzalanması ikitərəfli əməkdaşlıq üçün yeni imkanlar yaratmışdır.

Bizim üçün dünyanın ən qüdrətli ölkəsi - Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir. Biz, həmçinin Prezident Trampa, Vitse-prezident Vensə və onların heyətinə Qafqazda sülhə verdikləri töhfəyə görə çox minnətdarıq. Ötən avqustda Ermənistan və Azərbaycan Ağ Evdə Prezident Trampın iştirakı ilə sülh sazişini parafladılar və biz Prezident Trampın, həmçinin şahid kimi imzaladığı Sülh haqqında Birgə Bəyannaməni imzaladıq. Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik.

Biz bu cür böyük töhfəyə görə ABŞ Hökumətinə çox minnətdarıq. Biz Azərbaycan vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə nəinki bütün məhdudiyyətləri qaldırmışıq, o cümlədən özümüz Ermənistana neft məhsullarının təchizatına başlamışıq. Beləliklə, ticarətin və əməkdaşlığın başlanğıcı reallaşır. Tramp-Vens administrasiyasının regionumuzdakı səylərinin mühüm nəticələrindən biri Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu - TRIPP layihəsidir ki, o, nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, o cümlədən Azərbaycan, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı birləşdirəcək çox etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizidir. Beləliklə, regionda sülh sahəsində əldə olunmuş nəticələr gücləndirilir. Bu gün Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlər tamamilə yeni mərhələyə qədəm qoyur.

Əziz qonaqla imzaladığımız Xartiyada əməkdaşlığımızın müxtəlif istiqamətləri əks olunur. Biz təhlükəsizlik və antiterror əməliyyatları məsələləri üzərində işimizi davam etdirəcəyik. Bu gün Azərbaycan öz təbii qazı ilə 16 ölkənin enerji təhlükəsizliyini təmin edir. Onların 11-i NATO-nun üzvü, ABŞ-ın müttəfiqidir.

Bağlantılara gəldikdə, artıq qeyd etdiyim kimi, TRIPP layihəsi regionda sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olacaq. Biz müdafiə məhsullarının satışı sahəsində yeni səhifə açırıq və bu, həmçinin perspektivlidir. Əlbəttə ki, süni intellekt mərkəzlərinin yaradılması bu gün ikitərəfli gündəliyimizin bir hissəsidir və Amerikanın aparıcı şirkətləri ilə işbirliyi quraraq artıq ilkin nəticələrimiz var. Başqa sözlə, Vitse-prezident Vensin bugünkü səfəri, imzalanmış Strateji Xartiya, danışıqların mahiyyəti, dostumuz və qonağımızın qəbulu baxımından tarixidir. Cənab Vitse-prezident, xoş gəlmisiniz.

## "Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir"

**Vitse-prezident Cey. Di. Vensin bəyanatı**

-Təşəkkür edirəm Prezident Əliyev. Mən ABŞ Prezidentinin şəxsən Sizə, eləcə də Azərbaycan xalqına ən səmimi salamlarını çatdırmaq istəyirəm. Düşünürəm ki, bu, ABŞ üçün çox uzunmüddətli, çox mühüm tərəfdaşlıq və dostluqdur. Fikrimcə, bir çox amerikalılar bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-ın hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə, az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar. Bu gün biz bu dostluğa təşəkkür əlaməti olaraq buraya gəlmək istəyirdik, sözün əsl mənasında, səhifə çevirmək və növbəti fəslə keçmək istəyirdik.

Düşünürəm ki, Prezident Trampın və Prezident Əliyevin rəhbərliyi ilə daha güclü və daha yaxşı münasibətlər qurulacaq. Burada - Azərbaycanda danışmaq və elan etmək üçün çox məsələlər var.

Fikrimcə, biz burada baş verən bəzi əla məsələlər haqqında bütün günü danışa bilərdik. Ərazi sularınızın qorunması ilə bağlı Azərbaycana bəzi yeni qayıqları göndərəcəyik. Biz fərəhlə elan edirik və düşünürəm ki, mən Azərbaycanın iki hissəsini birləşdirəcək Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu ilə bağlı gələn ilk şəxs oldum.

Ümidimiz Azərbaycan ilə Ermənistan arasında həqiqətən inanılmaz sülh sazişinin dayanıqlı olmasını mümkün edəcək iqtisadi, təbii sərvətlər, əsas minerallarla bağlı əməkdaşlığın qurulmasıdır. Bilirik ki, toqquşmanın qarşısını alacaq və müharibələrə imkan verməyəcək mühüm məsələlərdən biri iki xalq arasında qarşılıqlı mədəni mübadilələrdir. Onlar birgə çalışanda böyük əmin-amanlıq yaranır və bir-biri ilə mübarizə aparmır.

Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir. Bu gün mən Ermənistanda idim. Ermənistanın Baş naziri və Azərbaycan Prezidentinin liderliyi olmasaydı, biz sülh sazişinə nail ola bilməzdik. Düşünürəm ki, üç şəxs tarixi sülhü yaratdı. Bu ölkənin Prezidenti, Ermənistanın Baş naziri və əlbəttə, ABŞ Prezidenti birgə işləyərək, əvvəllər müharibə olmuş məkanda sülh yaratdılar. Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir. Bu məsələlərdə ABŞ Prezidenti xarici siyasətimizi qurur. Bir halda ki, biz ticarətlə məşğul ola, tərəfdaşlıq qura biləriksə, nəyə görə biz bir-birimizlə vuruşmalıyıq?!

Fikrimcə, ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacaq. ABŞ-ın iş adamları üçün əlavə bazarlara çıxış yaranacaq. Bununla daha təkmil dünya yaranacaq ki, insanlar bir-biri ilə vuruşmasınlar, ticarət aparsınlar.

Düşünürəm ki, bu, ABŞ Prezidentinin missiyasının və xarici siyasətinin özəyidir. Biz ümumi maraqlar əsasında çıxış edə və bir-birimizlə daha böyük işlər qura bilərik. Biz strateji tərəfdaşlıq sənədini imzaladıq. Fikrimcə, bu, tərəfdaşlığı rəsmiləşdirir və çox aydın şəkildə göstərir ki, ABŞ-Azərbaycan münasibətləri dayanıqlıdır və xalqlarımız üçün böyük nəticələr verməkdə davam edəcək.

Şəxsən öz tərəfimdən qeyd edim ki, mən burada olmaqdan çox şadam. Enişdən əvvəl işçilərimə deyirdim ki, Prezident Tramp kimi Prezident Əliyev də dünyada türklər və israillilər ilə həqiqətən yaxşı münasibətlərə malikdir.

Həmçinin birincisi, burada yeməklər çox ləziz olmalıdır. İkincisi isə ölkə başçısı həqiqətən cəlbedici şəxsdir. Mən təsdiqləyə bilərəm ki, o, çox cəlbedicidir. Bir az sonra biz yeməkləri dadacağıq və əminəm ki, o da ləziz olacaq.

İcazə verin, həmçinin qeyd edim ki, ikinci xanım və mən bu gün axşam ziyafətdə iştirak etməkdən çox məmnunuq. Belə başa düşürəm ki, Azərbaycanın Birinci vitse-prezidenti Prezidentin həyat yoldaşıdır və ümid edirəm ki, bu, ikinci xanımı hər hansı başqa bir fikrə gətirmir. Mən bunları şəxsən öz tərəfimdən, eləcə də böyük xalqlarımızın dostluğu baxımından söyləmək istəyirəm. Burada olmaqdan çox böyük şərəf hissi duyuram və müzakirəni davam etdirməkdən çox məmnunam.

Tanrı sizi qorusun. Çox sağ olun.

# Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya

**Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti:**

1.İkitərəfli münasibətlərinin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədiklərini bir daha təsdiqləyirlər;

2. 8 avqust 2025-ci il tarixində Vaşinqton şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumundan çıxış edirlər;

3. Regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqlarının əhəmiyyətini təsdiqləyirlər;

4. Diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlərini vurğulayırlar;

5. Strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyətini təsdiqləyirlər.

**Bölmə I: Regional Bağlantılar, o cümlədən Enerji, Ticarət və Tranzit**

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Transxəzər Nəqliyyat Dəhlizini (Orta Dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı; enerji və data bağlantısı; ticarət və tranzitin asanlaşdırılması; gömrük nəzarəti və sərhəd keçidi; beynəlxalq multimodal logistika; və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədirlər. Onlar 8 avqust 2025-ci il tarixli Vaşinqton Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq iştirakçı ölkələrə beynəlxalq və ölkə daxili bağlantı üçün qarşılıqlı faydaları təmin etməklə, Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi kimi Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətini qəbul edirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları, Əsrin Müqaviləsi, Cənub Qaz Dəhlizi kimi layihələrin həyata keçirilməsi ilə nəticələnmiş və sıx əməkdaşlıq sayəsində hər iki tərəfə və daha geniş regiona fayda vermiş Azərbaycan-ABŞ münasibətlərinin məhsuldar tarixinə əsaslanaraq, ikitərəfli iqtisadi əlaqələri təşviq etmək məqsədilə biznes mühitinin, ticarət və sərmayə axınlarının inkişaf etdirilməsi istiqamətində çalışmaq niyyətindədirlər. Bu məqsədlə:

1.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları, Orta Dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları regional bağlantıların əhəmiyyətini qəbul edərək, enerji və nəqliyyat sektorlarına, eləcə də rəqəmsal infrastrukturun inkişafına dövlət və uyğun özəl sektor sərmayələrini səfərbər etmək imkanlarını araşdırmaq niyyətindədirlər;

3.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycan Respublikasının strateji əhəmiyyətini qəbul edərək, ikitərəfli formatda və üçüncü ölkələrlə tərəfdaşlıq vasitəsilə, interkonnektor layihələri kimi birgə layihələrin icrası və təchizat marşrutlarının şaxələndirilməsi istiqamətində, neft, qaz və elektrik enerjisi sektorları da daxil olmaqla, enerji əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

4.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları mülki nüvə əməkdaşlığını dərinləşdirmək niyyətindədirlər;

5.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kritik mineralların Orta Dəhliz vasitəsilə qlobal bazarlara tranzitini asanlaşdırmaqla bağlı əməkdaşlıq etmək niyyətlərini ifadə edirlər.







**Bölmə II: İqtisadi Sərmayələr, o cümlədən Süni İntellekt (AI) və Rəqəmsal İnfrastruktur**

1. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi artımı gücləndirmək, sərmayələri təşviq etmək və ikitərəfli biznes mühitini inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər. Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının qlobal iqtisadiyyata daha da inteqrasiya etmək və Xəzər regionu üçün enerji, ticarət, data, maliyyə, nəqliyyat və logistika şəbəkəsi kimi mövqeyini gücləndirmək səylərini alqışlayır;

2. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları iqtisadi və ya ticarət dialoqu platformalarının təşkili imkanlarının araşdırılması da daxil olmaqla, ikitərəfli ticarət və sərmayələri artırmaq üçün strateji fürsətləri müəyyənləşdirmək niyyətindədirlər;

3.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları özəl sektorun fəal iştirakı ilə ikitərəfli və regional iqtisadi, ticarət və sərmayə əməkdaşlığını inkişaf etdirmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər;

4. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları AI tərəfdaşlıqlarının inkişaf etdirilməsi üzrə əməkdaşlığı genişləndirmək və müvafiq hallarda, kosmik sənaye sahəsində əməkdaşlığı və Azərbaycan Respublikasında özəl sektorla əməkdaşlıq ilə AI data mərkəzlərinin inkişafı da daxil olmaqla, rəqəmsal infrastruktura sərmayə qoyuluşunu təşviq etmək niyyətindədirlər;

5. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları uğurlu beynəlxalq təcrübələrə əsaslanaraq, özəl müəssisə kapitalını təşviq etməyə, texnoloji inkişafı erkən mərhələdə riskdən azad etməyə və kommersiyalaşmanı sürətləndirməyə yönəlmiş birgə Tədqiqat və İnkişaf (R&D) dəstək alətləri, innovasiya körpü platformaları, eləcə də kibertəhlükəsizlik və süni intellekt sahəsində sektor-əsaslı təşəbbüslər kimi məxsusi mexanizmlərin yaradılmasını araşdırmaq niyyətindədirlər;

6. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları inkişafda olan texnologiyaların, platformaların və biznes təcrübələrinin tətbiqində uğurlu təcrübələri bölüşmək və texniki yardım göstərmək, dəstəkləyici tənzimləyici mühitə əsaslanaraq Azərbaycan Respublikasında istedadların inkişafı və bacarıqlı texnoloji işçi qüvvəsinin artımı üçün tərəfdaşlığı gücləndirmək və transsərhəd və Transxəzər rəqəmsal bağlantılar üçün sərmayələri təşviq etmək niyyətindədirlər;

7. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları, Azərbaycan Respublikasında rəqəmsal infrastrukturun inkişafı və AI tətbiqi üçün birgə tədqiqatı, inkişafı, kommersiyalaşmanı, texnologiyanın mühafizəsini və qarşılıqlı müəyyən edilmiş şərtlər əsasında, hüquqi və tənzimləyici çərçivələrə uyğun olaraq texnologiyaların könüllü ötürülməsini dəstəkləmək məqsədilə hökumətlərarası səviyyədə və dövlət-özəl tərəfdaşlıqları vasitəsilə əməkdaşlıq etmək niyyətindədirlər.

**Bölmə III: Təhlükəsizlik Əməkdaşlığı**

Cənubi Qafqazda sülh Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının ortaq marağındadır və Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təhlükəsizlik əməkdaşlığı hər iki dövlətə, eləcə də beynəlxalq və regional sülh və təhlükəsizliyə fayda verir. Birləşmiş Ştatlar, Azərbaycan qüvvələrinin beynəlxalq və regional təhlükəsizliyi irəlilətmək üçün Birləşmiş Ştatlar və koalisiya tərəfdaşları ilə birlikdə xidmət etdiyini nəzərə almaqla, Azərbaycanın beynəlxalq sülhməramlı səylərə verdiyi töhfələri yüksək dəyərləndirir.

1.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları müdafiə sənayesi məhsullarının satışı da daxil olmaqla, müdafiə və təhlükəsizlik əməkdaşlığının əhatə dairəsini genişləndirmək niyyətindədirlər;

2.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları terrorizm təhdidinə qarşı birgə mübarizə aparmaq öhdəliklərini nəzərə alaraq, mövcud antiterror əməkdaşlığını genişləndirmək niyyətindədirlər;

3.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları kibertəhlükəsizlik və mühüm infrastrukturun mühafizəsi sahəsində bacarıqları artırmaq məqsədilə əməkdaşlıq etmək niyyətindədirlər;

4.Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının mina və digər partlayıcı maddələrlə çirklənmə səbəbindən üzləşdiyi ciddi çətinlikləri nəzərə alaraq, maliyyə dəstəyi və texnologiya ötürülməsi vasitəsilə humanitar minatəmizləmə sahəsində potensialın artırılmasında əməkdaşlıq etmək niyyətindədirlər.

**Bölmə IV: İnstitusional Çərçivə və tətbiq**

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları bu Xartiyadan irəli gələn öhdəliklərini yerinə yetirməklə bağlı ortaq niyyəti qəbul edərək, mövcud Strateji Tərəfdaşlıq çərçivəsinin bir hissəsi kimi, iqtisadiyyat və ticarət; enerji; bağlantılar, AI və rəqəmsal inkişaf; təhlükəsizlik və müdafiə daxil olmaqla, əməkdaşlıq sahələri üzrə işçi qrupları yarada bilərlər.

Müvafiq İşçi Qrupları hazırkı Xartiyanın imzalanmasından sonrakı üç ay ərzində layihələrin siyahısını və onların həyata keçirilməsi üçün yol xəritələrini razılaşdırmaq niyyətindədirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları hazırkı Xartiya çərçivəsində ildə ən azı bir dəfə müntəzəm olaraq görüşmək niyyətindədirlər və tərəfdaşlıqlarının həyata keçirilməsi üçün zəruri olan və qarşılıqlı olaraq müəyyən edilmiş digər dialoq platformaları yarada bilərlər.

**Azərbaycan Respublikası Hökuməti adından**

**Amerika Birləşmiş Ştatları Hökuməti adından**

# Biznesi stimullaşdıran siyasət

## "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nda edilmiş dəyişikliklərə əsasən, sahibkarlar üçün yeni strateji layihələr müəyyənləşib



Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nda dəyişiklik edib. Dəyişikliyə əsasən, sahibkarların təqdim etdiyi strateji layihələr üzrə investisiya təşviqləri müəyyənləşib. Belə ki, bundan sonra sənaye məhəllələrinin rezidentlərinin investisiya təşviqi sənədi almaq üçün təqdim etdiyi strateji investisiya layihələrində minimal dəyəri 1 milyon manat olacaq. Bu, sahibkarların dövlətdən daha böyük məbləğdə təşviq məbləği əldə etməklə investisiya imkanlarını artırmalarına dayanıqlı imkanlar yaradacaq.

Xatırladaq ki, investisiya təşviqi sənədi investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və yeni sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi məqsədilə müvafiq qanunlarla müəyyənləşdirilən güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu sənəd hüquqi şəxslərə və fərdi sahibkarlara Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" Qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə imkan verir. İnvestisiya təşviqi sənədini əldə edən hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq olaraq mənfəət və gəlir vergisini 7 il müddətinə 50 faiz güzəştlə ödəyir, müvafiq əmlaka görə əmlak vergisindən, torpağa görə isə torpaq vergisindən 7 il müddətinə azad olunurlar. Həmçinin müvafiq təsdiqedici sənəd əsasında texnika, texnoloji avadanlıq və qurğuların idxalı ƏDV-dən və gömrük rüsumlarından 7 il müddətinə azad edilirlər.

### 2016-cı ildən başlayan təşviqedici addımlar

Azərbaycan ərazisində fəaliyyət göstərən hər bir hüquqi şəxs və fərdi sahibkar əvvəlcədən müəyyənləşdirilən tələblərə uyğun investisiya layihələri üzrə investisiya təşviqi sənədi ala bilər. İnvestisiya təşviqi sənədi İqtisadiyyat Nazirliyi tərəfindən aşağıdakı 3 əsas meyara cavab verən investisiya layihələrinə verilir:

* İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;

* İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;

* İnvestisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri.

İnvestisiya təşviqi sənədinin təqdim olunması üçün müəyyən konkret meyarlar dövlət başçısının 2016-cı il 20 aprel tarixli fərmanı ilə təsdiq edilib və 10 ildir ki, biznes icması bu güzəştlərlə əhatə olunub. 2016-cı ildən 2025-ci ilin sonuna kimi 500-dən çox sahibkarlıq subyektinə 650-yə yaxın investisiya təşviqi sənədi təqdim edilib. Təşviq edilən layihələrin 13 faizi Bakı şəhəri və ətraf qəsəbələrin, 87 faizi isə regionların payına düşüb. Təqdim olunan investisiya təşviqi sənədlərinin sahələr üzrə bölgüsü isə sənayedə 62,4 faiz, kənd təsərrüfatında 34,1 faiz, logistikada 1,8 faiz, turizmdə isə 1,7 faiz təşkil edib. Bununla yanaşı, investisiya təşviqi mexanizmi bir sıra sahələrin, o cümlədən qida, içki, tikinti materialları, rezin və plastik məmulatlar, hazır metal məmulatlar, avtomobil, bərpaolunan enerji istehsalı və digər sahələrin inkişafına təkan verib. İnvestisiya təşviqi sənədi verilən 400-dən artıq layihənin icrasına başlanılıb, digər layihələrin qurulması üzrə işlər davam etdirilir. Fəaliyyət göstərən müəssisələr üzrə istehsal olunan müxtəlif sənaye və kənd təsərrüfatı məhsulları dünyanın müxtəlif ölkələrinə (MDB, Avropa, ərəb ölkələri və s.) ixrac olunur.

### Daha 6 il vergi-gömrük güzəştləri

Strateji investisiya layihələri təqdim edən sahibkarlara isə 2023-cü il yanvarın 1-dən 6 il ərzində yeni təşviq sənədi verilir. Həmin sənəd üzrə təşviqlər yerli xammal bazasına əsaslanan istehsal, özəl sənaye məhəllələri, bərpaolunan enerji mənbələri hesabına enerji layihələri, həmçinin, tullantıların idarə olunması və təkrar emal, dəniz suyunun duzsuzlaşdırılması layihələrinə şamil olunur. Son 3 ildə investisiya müsabiqələri vasitəsilə özəlləşdirilən qeyri-neft sənayesi müəssisələrinin, dərman vasitələrinin və əczaçılıq məhsullarının, habelə hərbi təyinatlı məhsulların istehsalı layihələri də təşviq güzəştlərinə aid edilib.

2024-cü ildə isə "İnvestisiya təşviqi sənədinin alınması üçün ərizənin forması"nda edilmiş dəyişikliyə əsasən, investisiya təşviqi sənədinin alınması üçün tələblər yumşaldılıb. Sahibkarlara təşviq sənədinin verilməsi üçün onların vergi ödəyicisi kimi uçota alınmaları haqqında şəhadətnamənin surəti tələbi ləğv edilib.

### Sağlam və münbit investisiya iqlimi

Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi siyasətin mühüm prioritetlərindən biri biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması və sahibkarların istehsal sektorlarına sərmayə qoyuluşlarını, ixrac potensiallarını stimullaşdırmaqdır. Bu siyasət tədbirlərinə uyğun olaraq sahibkarlara bir sıra iqtisadi güzəştlər və təşviqlər edilir, institisional islahatlar yolu ilə onların geniş fəaliyyət göstərmələrinə münbit və sağlam mühit yaradılır. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamına əsasən, ölkə iqtisadiyyatına investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bu ssenariyə uyğun olaraq biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlər görülüb ki, bu da sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub.

### Son 20 ildə 170 milyard dollar həcmində xarici sərmayə

İnvestorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" qanunların qəbul edilməsi, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyini artırıb.

Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalaması da investisiya qoyuluşunu təşviq etməkdədir. Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb ki, həmin dövlətlərin investorlarının ölkəmizin iqtisadiyyatında potensial sərmayədar kimi xüsusi payı artmağa başlayıb.

Beləliklə, qeyd edilən təşviqedici tədbirlər, dövlətin xarici investorlara olan dəstəyi biznes sektorunun və beynəlxalq maliyyə qurumlarının Azərbaycana olan investisiya marağını yüksəldir. Ümumilikdə, 2003-2025-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi təxminən 320 milyard dollar təşkil edib ki, onun 170 milyard dolları xarici investisiyalardır.

### Azərbaycanın investisiya reytinqi "BBB" səviyyəsinə yüksəlib

Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib. "Standart & Poor's" və "Moods" reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq "BB+" səviyyəsinə qaldırıb. Eyni zamanda "Fitch Ratings" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbedicliyi mühiti ilə bağlı 2024-cü ilə dair hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik "Top-7" qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır.

***ELBRUS CƏFƏRLİ***

# Milli Məclisin iclasında...
# 12 qanun layihəsi müzakirə olunub



*Nardar BAYRAMLI*

Fevralın 10-da Milli Məclisin iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 12 məsələ daxil edilib.

Əvvəlcə "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi - Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında qanun layihəsini təsdiqləyib. Konvensiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən cinayətlərlə mübarizədə dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi, habelə ağır cinayətlərə aid olan sübutların elektron formada toplanması, mübadiləsi və mühafizəsi üçün vahid hüquqi çərçivənin formalaşdırılmasıdır. Sənəd 2025-ci il oktyabrın 25-də Hanoy şəhərində imzalanıb.

Sonra "Təhsil haqqında" Qanuna təklif edilən dəyişikliklər qəbul olunub. Bildirilib ki, "Təhsil haqqında" Qanuna əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsilhaqları dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilən "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na əsasən, yenidənhazırlanma təhsili, təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili yalnız ödənişli əsaslarla həyata keçirilir və müvafiq maliyyə xərcləri kadrın çalışdığı təşkilat və yaxud kadrın özü tərəfindən ödənilir. Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün də əlavə təhsil ödənişlidir və onların təhsilinə dövlət büdcəsindən vəsait ayrılmır.

Bu xüsusda sözügedən məsələ ilə bağlı yuxarıda qeyd olunan normativ hüquqi aktlar arasında ziddiyyətin aradan qaldırılması məqsədilə "Təhsil haqqında" Qanunda dəqiqləşdirmə xarakterli müvafiq dəyişikliklərin təsbit olunması təklif edilir.

Millət vəkilləri, həmçinin "Patent haqqında" Qanuna təklif olunan dəyişiklikləri üçüncü oxunuşda qəbul ediblər. Layihəyə əsasən, yaradılan ixtira, faydalı model və sənaye nümunəsi barəsində işəgötürənlə işçinin münasibətləri müqavilə ilə tənzimlənəcək.

Bundan başqa, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Qanunda dəyişiklik birinci oxunuşda qəbul olunub. Qanun layihəsinə əsasən, asbest və tərkibində asbest olan materiallar mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısına daxil edilir. Elmi araşdırmalar nəticəsində asbest və tərkibində asbest olan məhsulların insan sağlamlığı üçün ciddi təhlükə yaratdığı sübut edilib və onlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən kanserogen məhsullar kimi təsnifatlandırılıb.

Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi isə ikinci oxunuşda qəbul olunub. Dəyişiklik minimum əmək haqqının məbləğinin müəyyən edilməsinin dövriliyini nəzərdə tutur. Diqqəti çatdırılıb ki, işçilərin minimum yaşayış səviyyəsini təmin edən və bu gün bütün dünyada sosial siyasət alətlərindən biri olan minimum əmək haqqının tənzimlənməsi bir çox beynəlxalq qurumların, xüsusən də Beynəlxalq Əmək Təşkilatının həll etdiyi və diqqətdə saxladığı məsələlərdəndir. Bu xüsusda, Dünya Bankı Qrupunun "Business Ready" hesabatında qanunvericilikdə minimum əmək haqqının dövri yenilənməsinin məcburiliyinin təsbit edilməməsi bal itirən suallar kateqoriyasına şamil edilir.

Dəyişikliyə əsasən, minimum əmək haqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən ildə bir dəfədən az olmayaraq yenidən baxılır.

Daha sonra "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" qanunlarda dəyişikliklər ikinci oxunuşda qəbul olunub. Bildirilib ki, hazırda müvafiq qanunvericiliyə əsasən, onkoloji xidmət yalnız onkoloji xidmət göstərilməsi üçün ixtisaslaşmış dövlət müəssisələri tərəfindən həyata keçirilir. Təklif edilən dəyişikliklərdə isə onkoloji xəstələrə göstərilən tibbi yardımın dövlət onkoloji tibb müəssisələri ilə yanaşı, özəl tibb müəssisələri tərəfindən də həyata keçirilməsi ehtiva olunur.

Millət vəkilləri "Uşaq hüquqları haqqında" yeni qanun layihəsini də birinci oxunuşda qəbul ediblər. Bu qanun ölkədə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edir. 8 fəsil, 63 maddədən ibarət qanun layihəsində nəzərdə tutulmuş hüquqlar və azadlıqlar irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, sağlamlıq imkanlarından, valideynlərinin (onları əvəz edən şəxslərin), digər ailə üzvlərinin sosial vəziyyətindən, ictimai birliklərə mənsubiyyətindən və digər əlamətlərdən asılı olmayaraq hər bir uşağa aid edilir. Azərbaycanda olan əcnəbi və vətəndaşlığı olmayan uşaqlar digər qanunlarla və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, bu qanunda nəzərdə tutulmuş bütün hüquqlardan və azadlıqlardan istifadə edə bilərlər.

Qanun layihəsinə görə, bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqlar bu qanunda göstərilən əlamətlərə görə ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin hərəkət və hərəkətsizliyinə görə məsuliyyət daşımırlar və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahdan və ya nikahdankənar doğulmasından asılı olmayaraq, uşaqların valideynlərinin hər birinə münasibətdə eyni hüquqları var. Eyni zamanda, dövlət uşağın fərdiliyini, yəni vətəndaşlığını, adını və ailə əlaqələrini saxlamaq hüququnu qoruyur.

Hər bir uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Uşağın şəxsi və ailə həyatının sirri qanunla qorunur və hər bir uşağın şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ var. Qanunla nəzərdə tutulan hallardan başqa, uşağın şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər bir uşağın şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, uşaq izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, dövlət uşaqların yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatlarının sirrini saxlamaq hüququna təminat verir. Uşaqlara aid fərdi məlumatların dairəsi, habelə onların toplanması, emalı, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir. Uşağın tutulmasına, həbs edilməsinə və ya azadlıqdan məhrum edilməsinə yalnız İnzibati Xətalar, Cinayət və Cinayət-Prosessual məcəllələrində nəzərdə tutulmuş əsaslar mövcud olduqda yol verilir. Uşaq tutulduqda və ya həbs edildikdə bu barədə onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə, habelə ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya dərhal məlumat verilməlidir.

Qeyd edək ki, deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

# 1,1 milyon vətəndaşı əhatə edən sosial qərar

## Pensiyaların orta aylıq məbləği 590 manata yüksələcək

Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncama əsasən, 2025-ci il üzrə orta aylıq əməkhaqqının illik artım göstəricisinə uyğun olaraq pensiyalar 9,3 faiz artırılıb. Yanvarın 1-dən etibarən qüvvəyə minən sərəncamla 2026-cı il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi rəsmi göstəricilər əsasında indeksləşdirilib. Artımların tətbiqi tam avtomatlaşdırılmış elektron sistem üzərindən həyata keçirildiyindən, pensiyaçılardan hər hansı müraciət və ya sənəd təqdim olunması tələb edilmir. Bu yanaşma dövlət xidmətlərində şəffaflığın, operativliyin və vətəndaş məmnunluğunun artırılması məqsədinə xidmət edir.

Yanvar ayı üzrə pensiyalara edilmiş artımlar isə fevral ayının pensiyası ilə birgə ödəniləcək. Beləliklə, pensiyaçılar fevral ayında həm indeksləşdirilmiş yeni pensiya məbləğini, həm də yanvar ayına düşən artım hissəsini eyni vaxtda əldə edəcəklər. Bu mexanizm pensiyaçıların maliyyə yükünün azaldılması və gəlirlərinin daha stabil şəkildə təmin olunmasına yönəlib.

### Bütün növ əmək pensiyaları indeksasiya olunacaq

Dövlət başçısının müvafiq sərəncamına əsasən, indeksasiya bütün növ əmək pensiyalarına şamil olunacaq. Belə ki, "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq. Eləcə də, son bir ildə əmək və pensiya qanunvericiliyinə edilmiş dəyişikliklər sayəsində əmək pensiyası hüququ əldə edənlərin də təqaüdləri artırılacaq. "Əmək pensiyaları haqqında" qanuna (Maddə 9. Güzəştli şərtlərlə əmək pensiyası hüququ olan digər şəxslər) edilmiş dəyişikliklərdən sonra incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə çalışan şəxslərin pensiya yaşı həddinin 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ alması, eləcə də hərbi qulluqçuların hərbi xidmət dövrü üzrə müddətə görə, güzəştli pensiya hüququ qazanması sayəsində son bir ildə xüsusi şərtlərlə pensiya alanların da sayında əhəmiyyətli artımlara səbəb olub. Həmçinin, 2023-cü ilin yanvar ayında ötən ilin eyni dövrü ilə müqayisədə yaşa və əlilliyə görə müavinət alanların, ailə başçısını itirməyə və digər müavinət növləri ilə əhatə edilənlərin də sayında artım qeydə alınıb. Beləliklə, pensiyaların indeksləşdirilməsi 1,1 milyon pensiyaçını əhatə edir.

### Pensiya kapitalı inflyasiyaya uyğun artacaq

"Əmək pensiyaları" haqqında qanuna əsasən, yalnız əmək pensiyaları deyil, həmçinin vətəndaşların pensiya kapitalı da indeksləşdirilərək hər il artırılır. Həmin qanunun 29.1-1 maddəsində qeyd olunur ki, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir.

Yəni, pensiya kapitalları 2025-ci ildəki illik inflyasiya səviyyəsinə uyğun olaraq artırılır. Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2025-ci ildə illik inflyasiya səviyyəsi 5,6 faiz olub. Bu o deməkdir, vətəndaşların 1 yanvar 2026-cı il tarixinə olan pensiya kapitalları 5,6 faiz artırılacaq. Əgər vətəndaşın 40 min manat pensiya kapitalı varsa, onun yığımına 2 min 240 manat əlavə olunacaq. Nəticədə, həmin vətəndaşımızın pensiya kapitalı 42 min 240 manat olacaq. Bu mexanizm isə sosial sığorta sistemində iştirak edən şəxslərin gələcək pensiya hüquqlarının qorunmasında dövlətin aktiv rolunu nümayiş etdirir.

Qeyd edək ki, pensiya kapitalının indeksləşdirilməsi yığılan pulları inflyasiyadan qorumaq məqsədi daşıyır. Məqsəd həmin vəsaitlərə qiymət artımlarının təsirlərini minimumlaşdırmaqdır. Hər ilin əvvəlində tətbiq olunan bu indeksasiya mexanizmi göstərir ki, vətəndaşların pensiya kapitalı yalnız onların əmək fəaliyyətindən irəli gələn sosial sığorta ayırmaları hesabına deyil, eyni zamanda, dövlət tərəfindən də müntəzəm olaraq qorunur və artırılır. Bu isə uzunmüddətli sosial təminat baxımından mühüm əhəmiyyət daşıyır.

Bir məqamı da xüsusi olaraq nəzərə almaq lazımdır ki, Azərbaycanda artıq inflyasiya birrəqəmli həddədir, bu isə orta aylıq pensiya məbləğinin və digər sosial artımların artım tempinin inflyasiya rəqəmini üstələməsinə səbəb olacaq. Yəni artımlar nominal dəyər baxımından alıcılıq qabiliyyətinin yaxşılaşmasına imkan verəcək.

### Əmək pensiyaları üçün 8 milyard manata yaxın vəsait nəzərdə tutulub

Pensiya artımlarının maliyyələşdirilməsi üçün dövlət büdcəsindən illik əlavə 640 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Hökumətin ssenarilərinə əsasən, ümumilikdə, mövcud artımlardan sonra Azərbaycanda orta aylıq pensiya məbləği 543 manatdan 593 manata, yaşa görə isə 578 manatdan 632 manata yüksəlir. Bu sosial normativlər beynəlxalq təşkilatların tövsiyə etdiyi 40-60 faiz intervalına tam uyğun olmaqla, Azərbaycan pensiya sisteminin dayanıqlılığını və balanslı strukturunu əks etdirir.

Mövcud göstəricilər, eyni zamanda, pensiyaçıların gəlirlərinin artım tempinin saxlanıldığını və sosial müdafiə tədbirlərinin genişləndirildiyini və büdcədə sosial müdafiə xərclərinin artdığını şərtləndirir. "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinə əsasən, büdcədə əmək pensiyalarının ödənişinə ayrılan vəsait 7 milyard 992,88 milyon manat səviyyəsində nəzərdə tutulub ki, bu da 2025-ci ilin təsdiqlənmiş proqnozundan 10,85 faiz və ya 782,35 milyon manat çoxdur.

Onu da xatırladaq ki, Dövlət Sosial Müdafiə fondunun (DSMF) yığımlarında da artım nəzərə çarpmaqdadır. Ötən il fondun gəlirləri proqnozla müqayisədə 6 faiz və ya 471 milyon manat çox olmaqla 8 milyard 89 milyon manat təşkil edib. 2025-ci ildə DSMF-nin xərcləri 7,5 milyard manat təşkil edib ki, bu da əvvəlki ilə nisbətən 9 faiz və ya 629 milyon manat çoxdur.

2026-cı ildə isə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi gəlir və xərclər üzrə balanslaşdırılmış şəkildə 8 milyard 483 milyon 70 min manat məbləğində təsdiqlənib. Bu isə ötən ilki artan gəlirlərlə müqayisədə təxminən 400 milyon manat vəsait deməkdir. Bu dinamika isə pensiya və təqaüdlərin artımı üçün dayanıqlı mənbə deməkdir.




### Əhatəli sosial islahatlar rifahı yaxşılaşdırıb

Göründüyü kimi, həyata keçirilən ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etməkdədir. Ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, dünyada strateji əhəmiyyəti artıb. Ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilib, yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı dövlət sosial yardımı genişləndirilib, aztəminatlı ailələrin təminatı daha da gücləndirilib.

Son 22 ildə dayanıqlı sosial təminat daha da möhkəmlənib, insanların sosial həyatında müsbət meyillər güclənib. 2003-cü ildən ötən dövrdə ölkə üzrə minimum aylıq əməkhaqqı 44,4 dəfə artırılaraq 400, minimum aylıq pensiya 16 dəfə artırılaraq 320 manata çatıb. Orta aylıq əməkhaqqı 14,2 dəfə artaraq 77 manatdan 1095, orta aylıq pensiya 22,6 dəfə artaraq 539, yaşa görə orta aylıq pensiya 23,1 dəfə artaraq 574 manata yüksəlib.

Son yeddi il ərzində 5 sosial islahat paketi icra edilib və islahatlar 4 milyon nəfəri əhatə edib. Bu sosial proqramların maliyyə tutumu təqribən 8 milyard manata yaxındır. Təkcə keçən il 1,4 milyard büdcə vəsaiti həmin məqsədlər üçün xərclənib və maaş, pensiya və müavinətlərin artımı təmin edilib. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2,2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə endirilib.

Beləliklə, ölkəmizdə əhalinin sosial rifahının yüksəldilməsi və pensiyaçıların maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birini təşkil etməklə davamlı xarakter daşıyır. Son illər bu sahədə həyata keçirilən sistemli islahatlar və qəbul edilən qərarlar Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə formalaşdırılan sosialyönümlü inkişaf modelinin mühüm göstəricisidir. Bu baxımdan pensiyaların indeksləşdirilərək artırılması ilə bağlı növbəti qərar sosial müdafiə sahəsində ardıcıllığın və davamlılığın bariz nümunəsidir.

*E.CƏFƏRLİ*

# Minimum əməkhaqqı məbləğinə hər il baxılacaq

Milli Məclis "Əmək Məcəlləsinə" minimum əməkhaqqı ilə bağlı təklif edilən dəyişiklikləri birinci və ikinci oxunuşda qəbul edib. Dəyişikliklərə əsasən, minimum əməkhaqqı məbləğinə ildə ən azı bir dəfə baxılacaq. Bu, o deməkdir ki, dəyişiklik təsdiq olunduqdan sonra minimum əməkhaqqı artımında dövrülük təmin olunacaq. Bu artımların artıq qanunla tənzimlənməsi anlamına da gələcək.

Minimum əməkhaqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi təklifləri əsasında baxılması beynəlxalq sosial normativlərdən irəli gələn amildir. Beynəlxalq Əmək Təşkilatının tövsiyələrinə əsasən, işçilərin minimum yaşayış səviyyəsini təmin edən və dünyada sosial siyasət alətlərindən biri olan minimum əməkhaqqının tənzimlənməsi hökumətin sosial siyasətində daim əsas prioritet olmalıdır. Eləcə də Dünya Bankı Qrupunun yeni qiymətləndirmə metodologiyası olan "Business Ready" sənədinə əsasən, "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmək bazarı" işçi qrupunun Fəaliyyət Planı"nda müvafiq dövlət qurumuna hər il minimum əməkhaqqının artırılması ilə bağlı təklifləri hazırlayaraq adiyyəti üzrə təqdim etmək tapşırılıb.

### Dünya Bankının tövsiyəsinə əsasən...

Həmçinin, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində əməkhaqlarının artırılması, işləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqqının məbləğinin yüksəldilərək xalis minimum əməkhaqqı ölçüsünün xalis orta aylıq əməkhaqqının nisbətinin məqbul səviyyəsinə çatdırılması nəzərdə tutulub.

Qeyd olunanlar nəzərə alınaraq Baş nazirin müavini, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri tərəfindən 2025-ci il 19 fevral tarixində təsdiq edilmiş "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı "Əmək münasibətləri və məşğulluq sahəsində qanunvericilik islahatlarının aparılması" tədbirinin icrasını təmin etmək məqsədilə Əmək Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi hazırlanıb. Həmin layihə artıq parlamentdə ilk oxunuşda təsdiqlənib və bu, o deməkdir ki, Azərbaycan hökuməti Dünya Bankının adıçəkilən indikator üzrə tədbirinin icrasını təmin edib.

### Hansı şəxslərin minimum əməkhaqqı artacaq?

Minimum əməkhaqqı artımı sayəsində ölkə üzrə təxminən 800 min vətəndaşın əməkhaqqının artımı təmin olunur. Belə ki, dövlət büdcəsindən maliyyələşən bəzi sahələrdə əməyin ödənilməsi Vahid Tarif Cədvəli (VTC) əsasında aparılır. Vahid Tarif Cədvəlində maaşlar 19 dərəcə üzrə müəyyənləşdirilib. Hazırda ən aşağı maaş 400, ən yüksək isə 1150 manatdır. Bu o deməkdir ki, minimum əməkhaqqının artırılması bütün dərəcələr üzrə artımlara səbəb olacaq. Bu zaman əməkhaqqının minimum səviyyədən az və çox olması



xüsusi önəm daşımır. Xüsusilə də, sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s. sahələr üzrə maaşların artımları təmin olunur. Artımlar həm də özəl sektoru əhatə edir. Çünki minimum əməkhaqqı artımları mülkiyyət növündən asılı olmayaraq bütün sektorlarda çalışan və aşağı maaş alan işçiləri əhatə edir. Bu baxımdan özəl sektorda 400 minə yaxın şəxsin də maaşı artmış olur.

Minimum əməkhaqqının nə qədər artırılmasına gəlincə, bu rəqəm ölkədə inflyasiya ilə bağlı gözləntilər, sosial müdafiə sektorunda yığım imkanları və digər amillər nəzərə alınaraq müəyyənləşəcək. Artım əhalinin gəlirlərinə müsbət təsir etməklə, həm də əmək bazarına mühüm fayda verəcək, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, məhsuldarlığının, əməyin leqallaşdırılmasının təmin edəcək. Bu baxımdan, minimum əməkhaqqının növbəti artımından sonra yaşayış minimumunu arasında rəqəm də təxminən 30-40 faiz yüksəlmiş olacaq. Eləcə də, minimum əməkhaqqı artımı, ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbət göstəricisinin də yüksəlməsinə imkan verəcək.

Qeyd edək ki, həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildəki 33,3 faizə, 2020-ci ildəki 38 faizə yüksəlib. 2022-ci ildə 40 faiz, 2025-ci ildə isə 42 faiz səviyyəsinə yüksəlib. Ümumiyyətlə, minimum əməkhaqqı son 6 ildə 5 dəfə artırılaraq 130 manatdan 400 manata qaldırılıb. Növbəti artımlar isə yaşayış və sosial normativlər üzrə nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyiş olacaq.

Beləliklə, "Əmək Məcəlləsinə" minimum əməkhaqqı ilə bağlı təklif edilən dəyişikliklərin qəbul olunması ölkəmizdə sosial müdafiənin effektiv aləti sayılan minimum əməkhaqqının müəyyənləşməsinin dövriliyini təmin edəcək, insanların sosial rifahının artırılmasına səbəb olacaq.

*E.CƏFƏRLİ*

# ABŞ NATO strukturlarında yeniliklər edir...

## Vaşinqton 2 hərbi komandanlıq mərkəzinin idarəçiliyindən imtina edəcək?

ABŞ NATO-nun 2 hərbi komandanlıq mərkəzinin idarə edilməsindəki rəhbər rolundan imtinanı, eyni zamanda alyansın bütün dəniz əməliyyatlarının idarəetmə mərkəzinə nəzarəti öz üzərinə götürməyi planlaşdırır. Bu barədə "Reuters" öz mənbəsinə istinadən məlumat yayıb. Məlumata görə, Vaşinqton NATO-nun Norfolkdakı (Virciniya ştatı) Müştərək Qüvvələr Komandanlığına nəzarəti Böyük Britaniyaya, Neapoldakı komandanlığın şəxsi heyətlə təminatını isə İtaliyaya təhvil vermək niyyətindədir. Bununla yanaşı, ABŞ NATO-nun Müttəfiq Dəniz Komandanlığını - alyansın bütün dəniz qüvvələrinin Böyük Britaniyanın Hartfordşir qraflığında yerləşən əsas idarəetmə mərkəzini öz rəhbərliyi altına almağı planlaşdırır.

### ABŞ NATO məsləhət qruplarındakı iştirakını da azaldır

Yenidənqurma planı, həmçinin Almaniya və Polşanın Niderlandın Brunssum şəhərindəki NATO Müştərək Qüvvələr Komandanlığını öz üzərinə götürməsini nəzərdə tutur. Nəşr bildirib ki, hazırda bu işlə, əsasən, Mərkəzi və Şərqi Avropadakı çoxmillətli qüvvələri koordinasiya edən almaniyalı general məşğul olur.

Bundan əvvəl isə Pentaqon ABŞ-ın bir sıra NATO məsləhət qruplarındakı iştirakını azaltmağı planlaşdırdığını bəyan etmişdi. "The Washington Post" qəzetinin məlumatına görə, nəzərdə tutulan addım təxminən 200 ABŞ hərbi qulluqçusuna təsir edəcək və ABŞ-ın NATO-nun təxminən 30 strukturu, o cümlədən müxtəlif döyüş sahələrində alyans qüvvələrinə təlim keçən "Mükəmməllik mərkəzləri"ndə iştirakının azaldılmasını nəzərdə tutur. Qeyd olunur ki, ABŞ bütün personalı eyni vaxtda geri çəkmək niyyətində deyil. Bunun əvəzinə, xidmət müddəti başa çatan hərbçilərin əvəz olunmaması planlaşdırılır. Nəşr bildirir ki, ABŞ-ın sözügedən mərkəzlərin fəaliyyətində iştirakı tamamilə dayandırılmayacaq.

ABŞ-ın bütün dəniz əməliyyatlarının idarəetmə mərkəzinə nəzarəti öz üzərinə götürmək istəyinə gəlincə, bu, Yaxın Şərq, Venesuela, xüsusilə Qrenlandiya məsələləri ilə bağlı ola bilər. Xatırladaq ki, Donald Tramp bu yaxınlarda jurnalistlərə açıqlamasında deyib ki, NATO Qrenlandiya məsələsində bizimlə danışıqlar aparır. Onun sözlərinə görə, milli təhlükəsizlik üçün ABŞ-ın Qrenlandiyaya çox ehtiyacı var. "Əgər ora bizdə olmasa, xüsusilə də Qızıl Qübbə və digər məsələlərdə milli təhlükəsizlikdə böyük bir boşluq yaranacaq. Hərbi sahəyə çoxlu investisiyalarımız var. Dünyada hərbi sahə getdikcə güclənir. Biz bu məsələdə NATO ilə danışırıq", - deyən Tramp əlavə edib ki,

### Bütün dəniz əməliyyatlarının idarə edilməsinə nəzarət...

Qrenlandiya məsələsi ilə bağlı görəcəyimiz işdən həm NATO, həm də biz məmnun olacağıq. O bildirib ki, Qrenlandiya milli təhlükəsizlik və hətta qlobal təhlükəsizlik üçün çox vacibdir. Ağ Ev rəhbəri Qrenlandiya xalqının ABŞ-ın Arktika ərazisini əldə etməsini dəstəkləyəcəyini hesab edir: "Mən onlarla danışmamışam. Onlarla danışanda əminəm ki, çox sevinəcəklər".

Konnektikut ştatından olan demokrat senator Kris Mörfi isə "NBC News" telekanalının efirində deyib ki, Qrenlandiyanın ilhaqı NATO-nun sonu ola bilər: "Şimali Atlantika Alyansının Qrenlandiyanı müdafiə etmək öhdəliyi var və bu halda ABŞ Avropa, Böyük Britaniya və Fransa ilə müharibə vəziyyətinə düşəcək".




### Qərar Avropa ölkələrinə təzyiq məqsədi daşıya bilər

Ümumiyyətlə, Donald Tramp ikinci dəfə hakimiyyətə gəldikdən sonra ABŞ-ın NATO-nu tərk edəcəyi ilə bağlı bir neçə dəfə xəbərdarlıq edib. Bunu əsas səbəbi isə alyansın "yükünün" daha çox ABŞ-ın üzərində olması ilə bağlıdır. Bir çox siyasətçilər bunu yalnız hədə tonu kimi qəbul etsə də, "SOS" siqnalı səsləndirənlər də tapılırdı. Prezident Donald Tramp dəfələrlə müttəfiqlərinin müdafiə xərclərinin yetərli olmaması səbəbindən ölkəsinin NATO-dan çıxması ilə bağlı mövqeyini səsləndirmişdi. Hətta ABŞ-ın yeni milli təhlükəsizlik strategiyasında belə bu amil nəzərə çarpır. Qeyd edək ki, ötən il dekabrın 4-də Tramp administrasiyası Milli Təhlükəsizlik Strategiyasını açıqlayıb. Bu strategiya formal olaraq, ölkənin xarici və müdafiə siyasətinin fundamental prinsiplərini və prioritetlərini təsbit edən sənəddir.

Vaşinqtonun tənqidlərindən sonra NATO-nun Avropa müttəfiqləri alyans üçün xərclərini müəyyən qədər artırsalar da, bu, ABŞ-ı qane etmir. Vaşinqton ardıcıl şəkildə bildirir ki, Avropa ölkələrinin əksəriyyəti müdafiə sahəsinə kifayət qədər vəsait ayırmır. ABŞ ümumi NATO müdafiə xərclərinin təxminən 70 faizini qarşılayır və bu göstərici "ədalətsiz yük bölgüsü" kimi qiymətləndirilir. Bir çox siyasətçilər, xüsusilə Qərbi Avropadan olan politoloqlar Vaşinqtonun mövqeyini daha çox siyasi təzyiq aləti kimi dəyərləndirirlər. Onların fikrincə, bu bəyanatlar əsasən Avropa üzvlərini müdafiə xərclərini artırmağa vadar etmək məqsədi daşıyır.

Bütün hallarda ABŞ-ın Avropa üzrə NATO təmsilçiliyində müəyyən qədər ixtisar etməsi ciddi siqnaldır. ABŞ-ın bütün dəniz əməliyyatlarının idarəetmə mərkəzinə nəzarəti öz üzərinə götürmək niyyəti isə onun strateji maraqlarından irəli gəlir.

*N.BAYRAMLI*

# MƏDƏNİYYƏT TARİXİMİZİN GÖRKƏMLİ XADİMLƏRİNDƏN - BÜLBÜL KAZIMOVA



Qərbi Azərbaycanın tərəqqipərvər və ilk qadın müəllimlərindən biri olan Bülbül Hacı Məhəmməd Tağı qızı 1887-ci ildə İrəvan şəhərində anadan olmuşdur. 1914-cü ildə İrəvan rus-tatar (Azərbaycan) qızlar məktəbini bitirmişdir. Müəllimlik fəaliyyətinə ilk dəfə 29 avqust 1917-ci ildə İrəvan yaxınlığındakı Aralıq Baş kəndində başlamışdır.

1917-ci ildə Mehdi Kazımov müdir işlədiyi İrəvan oğlan məktəbində həyat yoldaşı Bülbül Kazımovanın müəllim işləməsi üçün İrəvan məktəblərinin inspektoru, görkəmli yazıçı və maarifçi Rəşid bəy Əfəndiyevə müraciət edərək onun həmin məktəbdə işləməsini xahiş edir. Rəşid bəy Əfəndiyev 1917-ci ilin noyabr ayından etibarən oğlan məktəbinin nəzdində qızlar üçün bir sinif açılmasına, Bülbül Kazımovanın həmin sinifdə müəllimlik etməsinə icazə vermişdir. Bülbül xanım rus-tatar (Azərbaycan) oğlan məktəbinin nəzdində qızlar üçün bir sinif təşkil edib, qapı-qapı düşüb şagird toplamışdı. Bülbül xanım və bacısı Rübabə Bağırova İrəvandakı rus-tatar (Azərbaycan) qızlar məktəbində təhsil almışdılar. Onlar İrəvanın ictimai-mədəni həyatında aktiv iştirak edir, azərbaycanlı qadınlar arasında baslanan maarifçilik hərəkatını daha da inkişaf etdirirdilər.

Az-çox oxumuş, pedaqoji təhsil görmüş azərbaycanlı qadınlarının sayı getdikcə artırdı. Amma gənc ziyalı qızların bu fərəhli həyatı uzun sürməmiş, yenicə alışdırmağa başladıqları maarif çırağı ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər zamanı söndürülmüşdür. Bülbül Kazımova 1918-ci ildə erməni daşnaklarının qanlı zülmü nəticəsində ailəsi ilə birlikdə İrəvandan didərgin düşərək Gəncə şəhərinə üz tutmuşdur. B.Kazımova Gəncədə məskunlaşdığı zaman dövrün qabaqcıl ziyalılarından olan Cavad bəy Cuvarlının təşkil etdiyi üçaylıq pedaqoji hazırlıq kursunda təhsil alıb öz biliyini daha da təkmilləşdirmişdir. Sonra tale onu Gədəbəyə çəkib aparmış, burada ilk qız məktəbini təşkil etmişdir. 1921-ci ildə Şəmkirdə, Dəllərdə müəllimlik etmişdir. Bülbül xanım Azərbaycanda neçə-neçə məktəbin, klub və mədəniyyət evinin əsasını qoymuşdur. 1920-ci illərdə Naxçıvanda sinif yoldaşı Siddiqə Abbasova ilə birlikdə qadınlar klubunun əsasının qoyulmasında da Bülbül xanımın müstəsna xidməti olmuşdur. Həmin dövrlərdə Azərbaycanın bir sıra bölgələrində qadın klublarının açılmasında və fəaliyyətində Bülbül xanımın təcrübəsindən geniş istifadə edilirdi. Bu maarifpərvər qadın bütün bilik və bacarığını, köməyini heç kimdən əsirgəməmişdi. 1922-ci ilin sonlarında yenidən uşaqlıq illərini keçirdiyi İrəvana qayıdan Bülbül Kazımova gərgin ictimai və pedaqoji fəaliyyətini daha da genişləndirərək uğurla davam etdirmişdir. İrəvana geri dönən Bülbül xanım pedaqoji fəaliyyətini 1922-ci ildə İrəvanda açılmış İrəvan Türk məktəbində davam etdirmiş, qadın təhsili uğrunda mübarizə alovu yenidən buradan şölələnmiş və bütün Cənubi Qafqaza yayılmışdır.

Bülbül Kazımovanın İrəvana gəlişi qadınlar klubunun yaradılmasında və fəaliyyətində yeni dönüş yaratmışdı. O, burada Azərbaycandakı Əli Bayramov adına mərkəzi qadınlar klubu tipində azərbaycanlı qadınların mədəniyyət mərkəzini düzəldib, savad kursları açıb, uşaq bağçası yaradıb, az-çox təhsil görmüş qadınları ictimai işlərə cəlb etmişdir. Kluba gəldiyi gündən özü kimi fəal qadınlardan ibarət bir özək yaradıb onların hər birinə müxtəlif sahələrə rəhbərlik etməyi həvalə etmişdi. Bülbül xanım Lala Qazıyeva, Zinyət İsayeva, Sona Qocayeva, Firəngiz Rizayeva, Yasəmən Əhmədova, Fatma Yusifzadə, Zəhra Abbasova və özü kimi başqa cəsarətli qadınları öz ətrafına toplayaraq Qərbi Azərbaycanda milli maarifimizin inkişafında mühüm rol oynamışdılar. Ümumiyyətlə, İrəvan azərbaycanlı qadınlar klubu həm də bir maarif ocağı kimi təhsil tariximizdə özünəməxsus yer tutur. Bu klub, həm də Qərbi Azərbaycanda bir özül kimi milli məktəb quruculuğumuzda gözəl bir nümunə rolu oynamışdır. Bu maarifpərvər qadınlar Bülbül xanımın mədəni həyatdakı fəaliyyətindən ruhlanaraq ictimai həyatda da fəal iştirak edirdilər. Həmin dövrdə Bülbül xanım İrəvanda Azərbaycan mətbuatının inkişafında da yaxından iştirak edirdi. Bülbül xanım eyni zamanda İrəvanda Azərbaycan dilində nəşr edilən mərkəzi mətbuat orqanı olan "Zəngi" qəzetinin ilk qadın müxbiri idi. O, "Zəngi" qəzeti səhifələrində azərbaycanlı qadınlarının maariflənməsi, klubun fəaliyyəti sahəsində görülən işlər barədə, maarifpərvər qadınların nəcib fəaliyyətlərindən bəhs edən yazılar dərc etdirirdi. O dövrün mətbuatı ilə tanış olduqda görürük ki, Bülbül xanımın fəaliyyəti sayəsində azərbaycanlı maarifpərvər qadınlar xeyli fəallaşmış, yeni tərəqqipərvər ziyalı nəsli yetişmişdir. O Qərbi Azərbaycanın rayonlarına gedib azərbaycanlı qadınlar arasında mühazirələr oxuyur, kəndlərdəki azərbaycanlı qadınları mövcud dövrün quruculuq prosesinə cəlb edirdi.

Bülbül xanım 1924-cü illərdə həm də İrəvan Azərbaycanlı Pedaqoji Məktəbində müəllim kimi çalışmışdır. O həmin dövrdə ağır şəraitdə yaşayan azərbaycanlı balalarını öz qanadı altına almış, təhsili və tərbiyəsi ilə məşğul olmuşdur. Həmin klub uzun müddət fəaliyyət göstərdi, yüzlərlə azərbaycanlı qadının mədəni həyata atılmasında, təhsil almasında böyük rol oynadı, onların azadlığı və hüquqlarının keşiyində dayandı. Ömrünün 50 ildən artıq hissəsini bilik və bacarığını, gənclik enerjisini İrəvanda Azərbaycan ictimai-mədəni həyatının inkişafına sərf etmiş, özündən sonra böyük ictimai-mədəni irs qoymuşdur. O, 20 ilə yaxın İrəvan azərbaycanlı qadınlar klubuna rəhbərlik etmişdir. Görkəmli maarif işçisi, fəal ictimai xadim Bülbül Kazımova xidmətlərinə görə bir sıra orden və medallarla təltif edilmiş, respublika əhəmiyyətli fərdi təqaüdçü idi. Ömrünü qadın və qızlarımızın maariflənməsinə həsr etmiş Bülbül Kazımova bu gün də böyük minnətdarlıq hissi ilə xatırlanır. Qərbi Azərbaycanın maarifpərvər qadınlarından olan, xalqımızın intellektual səviyyəsinin yüksəldilməsində nəcib xidmətlər göstərmiş Bülbül Kazımova 1976-cı ildə Bakı şəhərində vəfat etmişdir.



*Cəlal Zəngi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# "Bujival" razılaşmasına qarşı "Kanaki sazişi"...

*Nardar BAYRAMLI*

Kanakinin (Yeni Kaledoniya) aparıcı müstəqillik tərəfdarı koalisiyası FLNKS (Front de Liberation Nationale Kanak et Socialiste) ictimaiyyətə Kanakinin Fransadan tam müstəqilliyini tələb edən "Kanaki sazişi" adlı sənəd təqdim edib. Bununla bağlı Bakı Təşəbbüs Qrupunun bəyanatında qeyd olunub ki, "Kanaki sazişi" Fransanın təşəbbüsü ilə hazırlanmış və Kanakinin siyasi gələcəyini uzun illərdir davam edən müstəmləkəçi status-kvo çərçivəsində saxlamağı hədəfləyən "Bujival sazişi"nə cavab olaraq, Fransanın Kanaki xalqının öz müqəddəratını təyinetmə hüququnun məhdudlaşdırılmasını tənqid edən siyasi cavab kimi çıxış edir. Saziş, həm də Kanakidə uzun illərdir davam edən müstəmləkəçi idarəetmə modelinin və institutsional asılılıq vəziyyətinin qorunub saxlanılmasına qarşı açıq və prinsipial mövqeni ifadə edir.



**"Kanaki sazişi" müstəqilliyi ehtiva edir**

Qeyd edək ki, "Kanaki sazişi" 2025-ci il aprelin 26-da FLNKS tərəfindən Kanakidə təşkil edilmiş konqres çərçivəsində qəbul edilib. Həmin konqres zamanı, Fransada həbsdə olan hərəkat lideri Kristian Tein iştirakçıların diqqətinə çatdırmışdı ki, müstəqilliyin müəyyən edilməsi yalnız konkret tarix və aydın siyasi yol xəritəsi əsasında həyata keçirilməlidir. Sazişdə gələcək Kanaki dövlətinin dünyəvi, demokratik və suveren respublika kimi formalaşdırılması nəzərdə tutulur. Sənəd konstitusiya aktının hazırlanması və referendum yolu ilə təsdiqlənməsi prosedurunu özündə ehtiva edir, eyni zamanda, mövcud institutların keçid dövründə müvəqqəti idarəetmə mexanizmi kimi saxlanılmasını nəzərdə tutur. FLNKS hesab edir ki, Fransa, Kanakinin 2027-ci ilə qədər müstəqilliyə aparan geri dönməz prosesi qəbul etmədiyi müddətdə, mövcud institutlar üzərindən aparılan dialoqlar və siyasi mexanizmlər real həll yolu rolunu oynaya bilməz. Sənəd, Fransanın təşəbbüskarlığı ilə hazırlanan "Bujival sazişi"nə qarşı siyasi cavab olaraq, uzun illər boyunca Kanakidə qorunub saxlanılan müstəmləkəçi status-kvonun dəyişdirilməsinin zəruriliyini vurğulayır.

Xatırladaq ki, "Bujival sazişi" "Fransanın Kanakidə kolonial idarəçiliyini yenilənmiş status"u, "geniş muxtariyyət" və oxşar anlayışlar çərçivəsində davam etdirməsinə xidmət edir. "Bujival" razılaşması 2025-ci ilin 12 iyul tarixində Paris yaxınlığındakı Bujival şəhərində Fransa və Kanaki (Yeni Kaledoniya) siyasi qüvvələri arasında imzalanmış razılaşmadır. Bu sənəd Yeni Kaledoniyanın statusu ilə bağlı yeni siyasi çərçivəni müəyyən edir və ərazinin Fransanın tərkibində qalması şərti ilə "Yeni Kaledoniya dövləti" kimi xüsusi statuslu muxtar qurum kimi tanınmasını nəzərdə tutur. Razılaşmaya əsasən, Kanaki sakinləri həm fransız, həm də yeni yaradılacaq "Kaledoniya vətəndaşlığı"na malik olacaqlar. Bundan əlavə, sənəd dövlətin suverenlik hüququnun mərhələli şəkildə genişləndirilməsi, xüsusilə müdafiə, təhlükəsizlik və digər sahələrdə dövlət səlahiyyətlərinin tam ötürülməsi kimi məsələləri ehtiva edir. Bununla yanaşı, razılaşmanın qüvvəyə minməsi üçün 2026-cı ildə Yeni Kaledoniyada keçiriləcək referendumun müsbət nəticəsi vacib şərtdir.

**Dekolonizasiya prosesi yekunlaşmayıb**

Yeri gəlmişkən, bir müddət öncə Beynəlxalq Dekolonizasiya Cəbhəsi (FİD) də "Bujival" razılaşmasından əvvəlki 1988-ci ildə imzalanmış Numea razılaşmasına diqqət çəkərək qeyd edib ki, bu saziş yerli Kanaki xalqına özünüidarə və siyasi iştiraka dair ilkin hüquqi əsasları yaradaraq, gələcəkdə müstəqillik əldə etmək imkanlarının formalaşmasına zəmin yaradıb. Lakin 2024-cü ilin may ayında Fransanın hüquq-mühafizə orqanlarının həyata keçirdiyi zorakılıq aktları nəticəsində azadlıq hüququnu tələb edən Kanaki xalqı ciddi təzyiqlərə məruz qalıb, bununla yanaşı, 14 mülki şəxs həyatını itirib. Bu faciəli hadisələr və sonrakı siyasi proseslər göstərir ki, mövcud vəziyyət nə dayanıqlı sülhün təmin olunmasına, nə də Kanaki xalqının öz suverenliyinin tam şəkildə tanınmasına gətirib çıxarmayıb. Beləliklə, dekolonizasiya prosesi hələ də yekunlaşmayıb və tam reallaşmayıb.

FİD xüsusi olaraq "Bujival" razılaşmasında əks olunan "paylaşılmış suverenlik" nəzəriyyəsinin, habelə "ikili vətəndaşlıq" anlayışının Kanaki xalqının öz müqəddəratını təyinetmə hüququnu təmin etmək baxımından yetərli olmadığını bir daha vurğulayıb. Kanaki xalqının ayrılmaz və suveren hüququ hesab edilən öz müqəddəratını təyinetmə hüququnun həm Fransanın öz Konstitusiyasında, həm də beynəlxalq hüququn fundamental sənədi sayılan BMT-nin 1514 (XV) saylı qətnaməsində tam şəkildə hüquqi təminat verildiyini diqqətə çatdırır.

"Kanaki sazişi" də hazırkı mövcud status-kvonun açıq şəkildə ləğvini və Kanaki xalqının tam siyasi suverenliyinin əldə olunmasını əsas hədəf kimi müəyyənləşdirir. Müstəqilliyi qeyri-müəyyən və uzunmüddətli, perspektivi olmayan siyasi prosesə çevirən "Bujival sazişi"nin əksinə olaraq "Kanaki sazişi" konkret tarix, geri dönməz yol xəritəsi və beynəlxalq səviyyədə, xüsusilə BMT çərçivəsində təminat tələb edir.

Sənəd Fransa ilə Kanaki arasında münasibətlərin müstəqillik əldə edildikdən sonra, iki bərabərhüquqlu suveren dövlət arasında qurula biləcəyini ilk dəfə açıq şəkildə bəyan edir. Muxtariyyət və ortaq suverenlik kimi anlayışlar isə neokolonializm formaları kimi qətiyyətlə rədd edilir.

# Həyatdan çox şey istəmə...

## Elçin Hüseynbəyli: Sən həyata nə vermisən ki, ondan çox şey istəyirsən?

Bu dəfə söhbətimiz çağdaş ədəbiyyatımızın tanınmış simalarından biri - nasir, yazıçı-dramaturq, publisist Elçin Hüseynbəyli ilə olacaq. Müəlliflə ədəbiyyat, zaman və sözün məsuliyyəti barədə danışdıq. Beləliklə, müsahibəmizi təqdim edirik.

**- Elçin müəllim, yaradıcılıq prosesi nə yerdədir? Hansı işləri görürsüz?**

- Fəaliyyətimi bir neçə istiqamətdə davam etdirirəm. Hazırda bir kitab üzərində işləyirəm. Şərti adı hələ ki "Məğlubiyyətdən qələbəyə" qədərdir. Qarabağla bağlı 19 hekayə daxil edilib. Kitabın öz dilimizdə, eləcə də Türkiyə türkcəsində, rus və Ukrayna dillərində də nəşri nəzərdə tutulur. Eyni zamanda, mənim bir əsərim əsasında film çəkilir. Çəkilişlər Şabran rayonunda aparılır, bəzən özüm də ora gedib, çəkilişi izləyirəm.



Uşaqlar üçün "Qarabağ savaşı qəhrəmanlarının nağılları" kitabları üzərində işləyirik. Bilirsiz ki, uşaq nağılları yazmaq çox çətindir. Burada uşaqların psixologiyası nəzərə alınmalıdır. Söhbət müharibədən gedir axı. Dövlət qurumlarının layihəmizə dəstəyinə ümidliyik.

İlkin adı "Don Juan Persidski" müzikli üzərində iş gedir. Bəstəkar işin xeyli hissəsini görüb, amma əsər tam hazır olmadığından əraflı məlumat vermək istəmirəm. Onu deyim ki, bu, Azərbaycan teatr və musiqi tarixində ilk müzikllərdən biri olacaq. İş nəzərdə tutduğumuz müddətdə yekunlaşarsa, payızda premyerasının keçirilməsini düşünürük.

**- Fəaliyyətinizi izləyirəm, çoxşaxəlidir. Romanlar, hekayələr, pyeslər, məqalələr, film ssenariləri, uşaq nağılları.... Heç olubmu ki, nə vaxtsa yorulmusuz, fasilə vermək istəmisiz?**

- Bilirsiz necədir, yaza bilirsənsə yazmalısan, yaza bilmirsinsə, istirahət elə, düşün. Bir yazıçı artıq peşəkardırsa, o özünü heç nəyə məcbur etmir. Axı onun beynində müəyyən model, müəyyən şablon var və oturub sadəcə onu işləyir.

Yazıçı həmişə bu prosesin içində olur. Yazıçılıq elə bir məkandır ki, sanki orda sənin sevgilin yaşayır və onu heç vaxt unuda bilmirsən. Yazı da belə bir prosesdir, daim sənin qəlbində, beynində, ruhunda yaşayır. Yazıçı yazarkən həm də istirahət edir. Elə yazıçı var ki, ancaq sakitçilikdə yazır, eləsi də var, sakitçilik onu sıxır. Mən sonuncuların sırasındayam.

**- Yeri gəlmişkən, müsahibələrin birində evdə heç vaxt yazmadığınızı qeyd etmişdiniz. İndi də belədir?**

- Bəli. Mən yazılarımı işdə yazıram. Ev mənim üçün istirahət yeridir. Canavar xislətliyəm, öz ərazim var və o əraziyə heç kəs daxil ola bilməz. Orada ancaq özüm və düşüncələrim olur. Kənarda qalanların səs-küyü mənə mane olmur, çünki o məkana girə bilmirlər. Sakitçilik mənə yuxu gətirir, tənbəlləşirəm. Kimsə mənə mane olanda daha çox improvizasiyalar edə bilirəm. İstəyirəm ki, həyat mənim ətrafımda qaynasın.

**- Əsərlərinizin bir çoxunda Qarabağ mövzusuna müraciət etmisiz. Qarabağlı olduğunuz üçün belədir?**

- Ola bilər... Bir var genetik yaddaş, bir də var ruh yaddaşı. Məsələn: Təbriz genetik yaddaşımdır. Mən Qarabağın özüyəm. Gözümü orada açmışam, orada böyümüşəm, yaşamışam. Bir yazıçını zəngin edən onun yaddaşıdır. Vaxtilə kəndə gedib gəlsəydim, bir yazıçı olaraq enerjim daha da çox olardı. Qarabağ mənim mahiyyətimdir. Ona görə də mən Qarabağdan çox yazmışam, çox yazmağa da davam edəcəm. Bizim təkcə torpağımız yox, ruhumuz, mənəviyyatımız, adət-ənənələrimiz işğal olunmuşdu. İndi onlar işğaldan azad olunub, lakin 30 ilin yarası heç cür sağalmır. Mənim yaddaşımda qalan, təsəvvür etdiyim kənd daha yoxdur. Bu, gələcəkdə orda yaşayacaq gənc nəsil üçün vacib olmaya bilər, lakin orada yaşamış bizim kimi insanlar üçün çox vacibdir. Təsəvvür edin, müharibənin içində olmayan adam müharibədən yazır. Lakin bir yazıçı müharibənin içindən çıxıbsa, onu daha yaxşı qələmə ala bilir.

**- Siz, deyəsən, hekayələri həm də rus dilində yazırsınız. Fikirlərinizi oxucularınıza çatdırmaq üçün hansı dil sizə daha yaxın gəlir?**

- Yox mən rus dilində yazmıram. Cavanlıqda belə cəhdlərim olub, ancaq doğma dildə düşünüb yazmaq daha rahatdır. O başqa məsələ ki, rus dilini bildiyimə görə onların tərcüməsinə nəzarət edə bilirəm.

**- Müasir dövrdə ədəbiyyatın arxa plana keçməsi sosial şəbəkələrin geniş yayılması süni zəka ilə bağlı ola bilərmi?**

- Şübhəsiz! Burada sosial şəbəkələr böyük rol oynayır. Ədəbiyyat hazırda xoş gün yaşamır. Buna baxmayaraq bəşəriyyət var olduqca ədəbiyyat da hər hansı bir formada mövcud olacaq. Əvvəllər internetdən istifadə olmadığına görə insanlar kitab çox oxuyurdular. Öyrənmək istədiklərini jurnallardan, qəzetlərdən, kitablardan əldə edirdilər. İndi həmin informasiyalar qısa və vizual şəkildə əldədir. Bəzən sosial şəbəkələrdən müəyyən hadisələr haqqında məlumat alırıq, həmin mövzu çərçivəsində çəkilən film, yazılan əsər bizə maraqlı gəlmir. Lakin nəzərə almalıyıq ki, həmin məlumatı informativ şəkildə əldə etmək ayrı təsir bağışlayır.

Məsələn, bir fotoqrafın çəkdiyi foto və rəssamın əsərinə eyni baxmaq olmaz. Foto zamanın donmuş halıdır. Amma rəssamın əsərində dinamika var və orada müəllifin ürək döyüntüləri, ruhu hiss olnur. Müqayisə etsək görərik ki, bunların arasında böyük fərq var. Nəticə olaraq düşünürəm ki, sosial şəbəkələr, süni intellekt nə qədər inkişaf etsə də, bir rəssamın, bir yazıçının yerini verə bilməz. Amma süni intellektdən texniki inkişaf üçün səmərəli istifadə eləmək olar.

**- "Mədəniyyət konsepsiyası - 2040" konsepsiyasını necə dəyərləndirirsiniz?**

- Biz bunu çoxdan gözləyirdik. Şübhəsiz, mədəniyyətimizin, ədəbiyyatımızn hərtərəfli inkişafına böyük təsir edəcək. Hər halda buna ümid edirik.

**- Siz əvvəllər verdiyiniz müsahibələrdə Bekketdən, Prustdan təsirlənib, yazdığınızı demişdiniz. Bəs sizdən təsirlənib yazanlardan kimlərin adlarını çəkə bilərsiz?**

- Yazanlar kifayət qədər var, ad çəkmək istəmirəm. Hekayələrimdən təsirlənib Türkiyədə də yazanlar olub. Hətta biri mənə yazmışdı ki, sizin hekayələrinizi oxuyandan sonra bu vaxta kimi yazdığım bütün hekayələri cırıb atdım və sizin kimi yazmağa başladım.

**- Ədəbiyyata yeni gələn gənclərə hansı məsləhətləri verərdiniz?**

- Məsləhət verməyi sevmirəm. Məndən soruşanlara sadəcə təklif verirəm. Belə bir deyim var: Həyatda o qədər uğur qazanmamışam ki, sizə məsləhət də verim.

**- Amma uğurlusunuz axı...**

- Ola bilər.

**- Elçin Hüseynbəyliyə görə yaxşı yazıçı olmaq üçün dünyanı gəzmək lazımdır?**

- Vacib şərtdir. Uşaq vaxtı elə bilirdim ki, oxuduğum bütün nağılların personajları, gümbəzli minarələr dağın o tərəfindədir. Uşaqlar üçün hekayə yazanda o düşüncələrimdən istifadə etdim. Ümumiyyətlə düşünmək, xəyallar qurmaq çox vacibdir. Mənim azyaşlı nəvəm indidən nağıl yazır. O hazırda uşaq düşüncəsi ilə yazırsa, fəaliyyətini genişləndirmək üçün gələcəkdə çox şey görməlidir. Düşüncə qabiliyyəti yaxşı olan insanlar üçün gəzmək çox vacibdir. Mütaliə qabiliyyəti olmayan insanlar üçün dünyanı görmək sıradan bir hadisə kimidir. Biz gəzməli, görməli yerlər haqqında öncədən qısa da olsa informasiya toplamalıyıq. Orta Asiya ölkələrinə səyahət edəndə oradakı abidələrə, tarixi yerlərə daha yaxından bələd olmağa çalışıram. Köklərimiz yaxındır deyə bu, məni daha çox cəlb edir. Bu yaxınlarda "Gültəkin Xaqan" romanını yazdım. Əsəri ərsəyə gətirmək üçün həmin dövrə yaxın hadisələrlə bağlı 50-yə qədər film izlədim.

**- Elçin müəllim, niyə gənclər həmişə AYB-dən narazıdırlar? Hətta son vaxtlar Birlikdən imtina edənlər də oldu.**

- Deyirlər həyatdan çox şey istəmə. Sən həyata nə vermisən ki, ondan çox şey istəyirsən? Və o çox şeyi əldə etməyəndə onlar məyus olurlar. Həmin adamların bir qismi istedadlıdır, umacağı Azərbaycan Yazıçılar Birliyindən çoxdur, amma nəzərə almırlar ki, Birlik də hamıya istədiyini verə bilməz. Bəziləri isə ədəbiyyatda uğrusuz adamlardılar. Yazıçılar Birliyi könüllü bir qurumdur. Ora üzvlük də, ordan getmək də könüllüdür. İstedadlı adamların bu qurumdan getməsinə çox məyus oluram. AYB dinamik təşkilatdır. Kəmiyyət baxımından üzv çox olsa da, mahiyyət baxımından azdır.

**- Üzvlük haqqını ödəməyənlər barədə sərt qaydalar qoymusunuz, deyəsən?**

-Sərt qayda yoxdur. Nizamnaməyə görə hər bir üzv üzvlük haqqını ödəməlidir. Biz 2020-ci ilə qədər üzvlük haqqını ləğv etmişik. Amma o yandan bəri əksəriyyət bunu eləmir. Ona görə də müəyyən xəbərdarlıqdan sonra onlar üzvlükdən çıxarılır.

Özü də əsas məsələ əsər yaratmaqdır: AYB üzvü olsan da, olmasan da...

**Söhbətləşdi: Havar Şəfiyeva**

# Yazılmamış epopeyanın xülasəsi

## Professor Müseyib İlyasovun "Maarif fədaisi: Müseyib İlyasov" adlı kitabı üzərində gəzişmələr







Şahgörən. Bu adda adam indi çətin tapıla. Şahgörən - mənim babamın babasının babası olub. Bu xalis qızılbaş adını indi hətta bizim nəslimizdə də daşıyan yoxdur. Nədənsə nəslimizin adı da ulu babamız Şahgörənin yox, onun oğlu İlyasın (el arasında Eylas deyilir) adına bağlanıb - işğala qədər Laçın rayonunun Oğuldərə kəndində kompakt yaşamış əhalinin bir tirəsi İlyaslar, yaxud İlyas uşağı (el dilində Eylaslar, Eylas uşağı) adlanır. Buna görə Şahgörəndən fərqli olaraq İlyas adı nəsildən-nəslə ötürülməklə yaşadılıb, bütün törəmələrinin olmasa da, bir qisminin soyadında varlığını qoruyub. Ancaq İlyaslar nəslinin indiki Laçın ərazisinə yerləşmiş biz ata uşağından aralıda, başqa bölgələrdə də (məsələn, Qubadlıda) ayrıca qanad kimi, eyni kök üstündə bitmiş bir budaq kimi müstəqil şəkildə artıb törədiyini nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, nəslin adı Şahgörən oğlu İlyasın da yox, ondan bir neçə qurşaq əvvəl yaşamış babalarından hansısa birinin adıyla bağlıdır.

İlyaslar soyu Qaraçanlı oymağının bir qanadı, qaraçanlılar isə Şah İsmayılın sağ yanında yer almış Qaraçorlu qızılbaş tayfasının bir qoludur. On altıncı əsrin əvvəllərinə qədər qaraçanlılar istər ağqoyunlu, istərsə də səfəvi təbəəsi sifətiylə indiki Türkiyə ərazisində, Ərzurum civarında yaşayıblar. Çaldıran savaşından sonra (bəlkə də əvvəl) amansız təqiblərə məruz qalmış əksər qızılbaş tayfaları kimi onlar da yurdlarından didərgin düşüblər, yer dəyişə-dəyişə, nəhayət, Şərur-Dərələyəz mahalında məskunlaşıblar. Nəslin bir qismi Dərələyəzdə həmişəlik yurd salıb, bir qismi də sonradan Şərqi Zəngəzur ərazisinə dağılışıb. Bildiyim qədər Kəlbəcər rayonunda qaraçanlıların yaşadığı bir neçə kənd var. Qubadlı bölgəsində isə bizimlə bir kökdən olan ilyaslılar məskunlaşıblar, onların tanınmış nümayəndələri arasında məşhur çekist Qara İlyasov, böyük şairimiz Ramiz Rövşən də var. Təəssüf ki, ayrılıq müddəti uzandıqca qohumlar, doğmalar arasında əlaqələr də itib.

***

Tarixi məxəzlər göstərir ki, Şahgörənlə oğlu İlyas ailələriylə birgə Dərələyəzin Obana kəndində yaşayıblar. 1831-42-ci illərin məlumatına görə, cəmisi beş ailədən ibarət bu kəndin 13 kişi, 25 qadın sakini olub. Türkmənçay müqaviləsindən sonra tərtib olunmuş "Dərələyəz mahalının kameral təsviri" adlı mənbədə yazıldığına əsaslansaq, həmin illərdə Şahgörən oğlu İlyasın təqribən otuz, arvadı Şahsənəmin iyirmi beş yaşı varmış. Buradan da belə çıxır ki, İlyaslar nəslinin ulu babası aşağı-yuxarı on doqquzuncu yüzilliyin əvvəllərində dünyaya gəlib.

Həmin mənbənin verdiyi məlumata görə, Obana kəndinin əhalisi 1831-ci ildən sonra oradan köçüb, ancaq hara köçdükləri bəlli deyil. Məlumatın davamına 1874-cü ildə tərtib olunmuş "Zəngəzur qəzasının kameral təsviri" adlı başqa bir mənbədə rast gəlinir. Burada verilən bilgilərə əsasən aydın olur ki, Şahgörən oğlu İlyas oğlanları Məmməd (50 yaş), Həsən (45 yaş), bir də İbrahimlə (35 yaş) birlikdə Şərqi Zəngəzur ərazisinə, indiki Laçın rayonunun Qaraçanlı-Künbəzli kəndinə köçüb orada məskunlaşıb. Bu üç qardaşın törəmələri - İlyaslar nəslinin üç tirəsi bu gün də Məmmədli, Həsənli, İbrahimli adlarıyla tanınır.

Fəqət bu kənd də uzun köç yolunun son dayanacağı olmayıb. On doqquzuncu əsrin axırlarına doğru İlyas babamız hər üç oğlunu ailələriylə birgə yanına alıb indiki Oğuldərə kəndinin ərazisinə köçüb, burada qohumu Məcnun Allahverdi oğluyla birgə kəndimizin bünövrəsini qoyub. İlyas oğlu İbrahimin altı oğlundan sonuncusu - Müseyib İbrahim oğlu İlyasov məhz bu kənddə dünyaya gəlib.

***

Gələcək maarifçinin atası, mənim babamın babası Kərbəlayı Molla İbrahim, günümüzə çatmış sənədlərə inansaq, 1839-cu ildə anadan olub. Dövrünün açıq fikirli, qabaqcıl, hörmətli şəxslərindən sayılıb. Dini təhsil alsa da, din xadimi kimi fəaliyyət göstərməyib, sadəcə, savadlı olduğuna görə el arasında ona "molla" deyə müraciət eləyərmişlər. Kərbəlayı İbrahim on doqquzuncu əsrin sonlarında Oğuldərə kəndində öz hesabına ibtidai məktəb açıb, Güney Azərbaycandan olan bir savadlı mollanı həmin məktəbdə dərs demək üçün kəndə dəvət eləyib. Özü 1903-cü ildə dünyadan köçsə də, açdığı məktəb 1920-ci illərə qədər fəaliyyət göstərib.

İbrahimin altı oğlu olub: Ağakişi (üzərində gəzişdiyimiz kitabın müəllifi Müseyib müəllimin babası), Balakişi, Qənbər, Əli (atam Ağa Əliqəmə oğlunun babası), Zülfüqar, Müseyib. Oğlanlarından son üçü ibtidai təhsilini atalarının açdığı məktəbdə alıb. Əli sonralar Minkənddə yerləşən rus-tatar məktəbində təhsilini artırdığına, bir neçə dil bildiyinə, həm də bir müddət Sultan bəyin yanında, daha sonra Gorusda mirzəlik elədiyinə görə el arasında Mirzə Əli adıyla tanınıb. Zülfüqar mədrəsə bitirib ali ruhani dərəcə alandan sonra səkkiz il (1910-1918) Göyçə mahalının qazisi kimi dini vəzifə yerinə yetirib. 1937-ci ilin avqust ayında guya dini təbliğat apardığına görə saxta ittihamla həbs olunub, sentyabrın sonlarında Nargin adasında güllələnib. 1958-ci ildə digər repressiya qurbanları kimi Zülfüqar İbrahim oğlu İlyasov da bəraət alıb.

Kərbəlayı İbrahim oğullarının sonbeşiyi Müseyibin qəziyyəsi, faciəsi isə bir cümləyə, bir abzasa sığan deyil...

***

Bütün bu deyilənlər bizə - İlyaslar nəslinin yeni yetişən törəmələrinə əvvəllər dildən-dilə, necə deyərlər, şifahi şəkildə, rəvayət, dastan kimi gəlib çatardı. İndi isə əlimizdə daşdan keçən sənədlər, mötəbər xatirələr əsasında yazılmış ömür kitabı var. Bu kitab İlyas uşağının ziyalı nümayəndələrindən biri, pedaqogika üzrə elmlər doktoru, ADPU-nun kafedra müdiri, öz qəhrəmanının həm adını-soyadını daşıyan, həm də yolunu davam etdirib məsləkini yaşadan professor Müseyib İlyasovun uzun illərdən bəri çəkdiyi zəhmətin, apardığı araşdırmaların bəhrəsidir.

Elə buradaca indiyəcən heç kimə açmadığım bir uşaqlıq arzumu bölüşmək istərdim: orta məktəbdə oxuduğum illərdə başıbəlalı nəslimizin taleyindən danışan böyük bir dastan (saqa) bağlamaq, "İlyas uşağı" adlı təxminən iki yüz illik bir dövrü əhatə eləyən çoxşaxəli, çoxcildli ailə epopeyası yazmaq arzusundaydım. O zaman belə bir nəhəng işin altına girməyə, əlbəttə, hazır deyildim, sonrakı çətin illərin reallıqları isə bir çox uşaqlıq xəyalım kimi bu arzumu da küsdürüb çin çıxmamış diləklər, puça çıxmış xəyallar arxivinə göndərdi. Nə yaxşı Müseyib müəllim bu kitabı qələmə aldı, əcdadımız qarşısında borcumuzu hamımızın əvəzindən ödədi.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Kompüter oyunları və uşaq psixologiyası!



## Valideynlər nələrə diqqət etməlidir?

*Yeganə BAYRAMOVA*

Etiraf edək ki, kompüter oyunları uşaqlar üçün cəlbedicidir. Parlaq qrafika, sürətli dinamika, səviyyə keçmə hissi və ani mükafatlar məktəblilərdə güclü emosional reaksiya yaradır. Bu isə diqqətin uzun müddət oyunda qalmasına səbəb olur. Nəticədə real həyatda dərs oxumaq və ya ailə üzvləri ilə ünsiyyət qurmaq uşaq üçün daha az maraqlı görünə bilir. Psixoloqların fikrincə, bu hal diqqət dağınıqlığına, səbrsizlik hissinin artmasına və aqressiyaya yol aça bilər.

**ÜST-dən mühüm çağırış...**

Bu yaxınlarda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus İspaniyanın Baş naziri Pedro Sançesin gəncləri sosial şəbəkələrin “zəhərli kainatı”ndan qorumaq ideyasını dəstəkləyib və onlar üçün yaş məhdudiyyətlərinin tətbiq edilməsinə çağırıb. ÜST-ün baş direktoru bunu “X” sosial şəbəkəsindəki hesabında yazıb.

“Platformalar uşaqların təhlükəsizliyini və sağlamlığını qoruyan formada hazırlanmalı və işləməlidir”, - ÜST rəhbəri sosial şəbəkədə yazıb.

O, əlavə edib ki, bu, digər məsələlərlə yanaşı, real yaş məhdudiyyətlərinin tətbiq olunmasını tələb edir. Qebreyesus İspaniya Baş naziri ilə razılaşıb və əlavə edib ki, sosial medianın tənzimlənməsi və hesabatlılığı böyük əhəmiyyət kəsb edir. ÜST rəhbərinin sözlərinə görə, faktlar göstərir ki, uşaqlara dəyən zərər təkcə sosial mediadan istifadə ilə deyil, həm də onların necə dizayn edilməsi ilə bağlıdır. Bu baxımdan, o, həmçinin sosial medianın zərərli və asılılıq yaradan dizaynı ilə mübarizə aparmağa və onları müstəqil nəzarətə tabe etməyə çağırıb.

**Təhlükə saçan oyun: Ombudsmandan bəyanat**

Ötən gün isə Azərbaycan Respublikasının Ombudsmanı Səbinə Əliyeva bəyanat yayıb. Bəyanatda deyilir ki, son zamanlar uşaqlar tərəfindən həmyaşıdlarına və digər şəxslərə qarşı aqressiv davranışın göstərilməsi, hüquq pozuntusu törədilməsi halları ciddi narahatlıq doğurur. Ombudsman qeyd edib ki, uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinə dair müraciətində son illər uşaqlar arasında geniş yayılmış onlayn oyun və interaktiv platformaların, xüsusilə “Roblox” platformasının yaratdığı risklər barədə analitik təhlilə əsaslanan məlumatlar verilib. Aidiyyəti dövlət orqanları uşaqların rəqəmsal təhlükəsizliyinin təmin edilməsi məqsədilə onlayn platformalar üzərində nəzarət mexanizmlərini gücləndirməyə, risklərin hüquqi qiymətləndirilməsinin aparılmasına və preventiv fəaliyyətin həyata keçirilməsi sahəsində zəruri tədbirlər görməyə dəvət olunub.

**Vahiməli səslərlə müşayiət olunan oyunlar**

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən psixoloq Elnur Rüstəmov bildirib ki, valideynlər uşaqları şiddət və zorakılığı təbliğ edən oyunlardan imkan olduqca uzaq tutmağa çalışmalıdırlar: “Əllərinə kompüter, mobil telefon keçən kimi internetdən şiddəti, zorakılığı əks etdirən oyunlar yükləyirlər. Vahiməli səslərlə müşayiət olunan döyüş oyunlarının kiçik bir fraqmentini izləmək, bu oyunların uşaqlar üçün təhlükəli olduğu qənaətinə gəlməyə kifayət edir. Rəqibinə şiddətli zərbələr endirmək, onu öldürməmiş əl çəkməmək uşaqları tədricən bu cür internet oyunlarının qəhrəmanlarına bənzədir. Uşaqlarda aqressiyanın artmasının da səbəblərindən biri məhz bu oyunların təsiri ilə əlaqəlidir”.

**Uşaqlara “şüuraltı infeksiya” yeridilir**

E.Rüstəmovun sözlərinə görə, son zamanlar geniş yayılmış “Roblox”un əsas təhlükəsi platformada nəzarətin zəif olmasıdır: “Oyun zamanı uşaqlar tanımadıqları şəxslərlə ünsiyyət qura, yaşlarına uyğun olmayan davranış və ifadələrlə qarşılaşa bilərlər. Bu isə uşaqlarda qorxu, stres və psixoloji çaşqınlıq yarada bilər.

Eyni zamanda onlayn oyunlara artan maraq uşaqların açıq havada oynadıqları ənənəvi oyunlara olan marağını xeyli azaldıb. Nəticədə sosial ünsiyyət zəifləyir, fiziki aktivlik azalır. Kiçik bir monitorinq aparsaq, görəcəyik ki, hansısa “Roblox” kimi oyunların fonunda “şüuraltı infeksiya” uşaqlara yeridilir. Bunun fonunda azyaşlılarda aqressiya yaranır və valideynlər onların ünsiyyətinə nəzarət edə bilmirlər. Valideynin internet resurslarını kontrol etməsi mümkünsüz hala gəlir. Buna görə maarifləndirici tədbirlər görülməlidir”.

**Uşaqlarda şizofren davranışı formalaşdırır**

Psixoloq qeyd edib ki, bəzi internet oyunları, cizgi filmlər var ki ümumiyyətlə, danışıqdan istifadə olunmur, yalnız jest və mimikalardan ibarətdir: “Bu zaman şüuraltı olaraq uşaq düşünür ki, insanlar arasında verbal ünsiyyət mühüm deyil, qeyri-verbal vasitələrlə qarşı tərəfə lazım olanı başa salmaq olar. Bilavasitə bu düşüncədə olan uşaq ünsiyyətdən qaçır, özünə qapanır və şizoid şəxsiyyət tipinin formalaşmasına zəmin yaradır. Digər bir məqam cizgi filmlərinin, kompüter oyunlarının uşaqlarda təxəyyülü yüksək dərəcədə inkişaf etdirməsi ilə bağlıdı. Bu oyunları, cizgi filmini izləyənlər süni formada hallusinasiya yaradır, bunun normal olduğunu düşünür, qeyri-adekvat reaksiyalar verir və şizofren davranışın formalaşmasına gətirib çıxarır”.

**Oyun bitsə də təsiri qalır...**

**Böyük təbliğat, tanıtım, reklam imkanları...**

İKT üzrə mütəxəssis Fərid Pərdəşünas dünyada kompüter oyunlarının böyük gəlirli sahələrdən biri olduğunu, bu oyunların istehsalı ilə məşğul olan nəhəng dünya şirkətlərinin olduğunu bildirib. Onun sözlərinə görə, eyni zamanda bu oyunlar böyük təbliğat, tanıtım, reklam imkanlarına malikdir: “Hər hansı bir kompüter oyunu onu istehsal edən ölkənin mədəniyyətini, tarixini, dilini, turizmini tanıtmaqla da məşğuldur”.

**Naməlum şəxslərlə təmas və pedofiliya**

Ekspert kompüter oyunları zamanı uşaqların qarşılaşacağı təhlükələrdən də söz açıb: “Ən ciddi risklərdən biri uşağın tanımadığı şəxslərlə ünsiyyətidir. Bəzi insanlar uşaqların etibarını qazanaraq onları manipulyasiya etməyə və uyğun olmayan davranışlara sövq etməyə çalışa bilərlər. Bunu adətən çat, şəxsi mesajlar və ya dostluq münasibəti quran obrazlar vasitəsilə edirlər.

Məsələn “Roblox” platforması 13 yaşdan kiçiklər üçün şəxsi mesajlaşmanı valideyn icazəsi olmadan məhdudlaşdırır, amma bu sistem həmişə effektiv işləmir, çünki yaşın yoxlanılması çətindir, bəzi istifadəçilər filtrləri aşa bilir”.

**Uyğunsuz və zərərli kontent**

Mütəxəssisin sözlərinə görə, bəzən kompüter oyunlarında uşaqlar üçün uyğun olmayan kontentlə qarşılaşmaq mümkündür: “Qorxu elementləri, kobud ifadələr, şokedici səhnələr ola bilir. Bundan başqa, filtrləri keçmək üçün yüklənən nalayiq sözlər olan audio və videolara da rast gəlmək olur. Çatlarda təhqirlər, ələsalma, oyunda qruplaşmalar uşaqların hisslərini incidə bilər. Bu, özünəinamın azalmasına, qorxu və narahatlığa şərait yaradır. Bəzi oyunçular uşaqlardan ad, yaş, yaşayış yeri kimi məlumatlar istəyirlər. Uşaqlar bunu paylaşdıqda ciddi təhlükə yaranır. Bundan başqa, platforma istifadəçi davranışları barədə məlumat toplayır. Əgər bu məlumatlar sızarsa, risklər artır”.




**Valideynlərə məsləhətlər...**

Ekspert valideynlər üçün praktik məsləhətləri diqqətə çatdırıb: “Belə məqamlarda valideynlərin övladı ilə açıq danışması əsas şərtlərdən biridir. Uşağa şəxsi məlumatları tanımadığı insanlarla paylaşmamağın vacibliyini izah etmək lazımdır. Valideyn həmçinin şəxsi nəzarətlərini aktivləşdirməlidir. Məsələn, çat məhdudiyyətlərini, alış-veriş icazəsini yoxlamaq vacibdir. Eyni zamanda oyun üçün vaxt limitləri qoymaq lazımdır. Yəni, oyunun dərsə, yuxuya və sağlamlığa mane olmaması üçün balans yaratmaq əsasdır. Ən mühüm məqamlardan biri də dost siyahısını izləmədir. Belə ki, uşağın yalnız real həyatda tanıdığı və ya ailənin tanıdığı insanları əlavə etməsini təşviq etmək lazımdır”.

# Mərhəmət çağırışı!

## Xəstəyə uzadılan əl dərmandan da təsirli ola bilər...

### Ümumdünya Xəstələr Günüdür

Xəstəlik insanı təkcə fiziki baxımdan sarsıtmır, insanın ümidini, səbrini, bəzən də inamını sınayır. Bir palatada saatların necə uzandığını, gecələrin nə qədər səssiz və ağır keçdiyini yalnız bunu yaşamış xəstələr bilir. Müasir dövrdə texnologiya və tibbin inkişafına baxmayaraq, xəstəliklər hələ də insanlığı ciddi şəkildə təhdid edir. Stresli həyat tərzi, ekoloji problemlər, düzgün qidalanmama və hərəkətsizlik bir çox xəstəliklərin yaranması üçün əsas səbəbə çevrilib.

Tibbi təqvimdə Xəstələr Gününün olmasından bəlkə də çoxları xəbərsizdir. Əslində bu gün hamıya aid olsa da, ağrıacıdan uzaq elə insanlar var ki, onların sağlamlıq durumu həkim qapısı döyməyə ehtiyac yaratmır. Məşhur rus yazıçılarından birinin dediyi kimi, ağrı hiss edirsənsə, canlısan, başqalarının da ağrısını hiss edirsənsə, insansan.

11 fevral Ümumdünya Xəstələr Günü müxtəlif fiziki ağrılara mübtəla olanların ağrılarını yüngülləşdirmək və onlara göstərilən xidməti yaxşılaşdırmağa ictimaiyyətin diqqətini cəlb etmək üçün düşünülüb. Bu gün 1992-ci il mayın 13-də Roma Papası II İohann Pavelin təşəbbüsü ilə təsis edilib. 1991-ci ildə II İohann Pavelə Parkinson xəstəliyi diaqnozu qoyulub. Katoliklərin dini rəhbəri həmin diaqnoz qoyulandan sonra Xəstələr Gününün qeyd edilməsi təşəbbüsünü irəli sürüb. O, özünün bu barədəki xüsusi müraciətində bildirib ki, Ümumdünya Xəstələr Gününün hər il qeyd edilməsinin başlıca məqsədi xəstələrin ağrı və iztirablarını yüngülləşdirmək və ictimaiyyətin diqqətini onlara göstərilən xidmətin səviyyəsini yaxşılaşdırmağa yönəltməkdir.

Tibb nə qədər inkişaf etsə də, elə xəstəliklər var ki, müasir tibb də onun qarşısında aciz qalır. Bəşəriyyətin mübarizə etdiyi xəstəliklərin bəzisi yüngül olur və müalicə ilə aradan qaldırıla bilir. Nadir və çarəsi bilinməyən xəstəliklər üçün isə heç bir dərman kəşf olunmayıb və çox güman ki, onlar hələ uzun illər boyu bəşəriyyətdə böyük bir sirr olaraq qalacaq.



### “Daş adam sindromu”

Nadir xəstəliklərdən olan “Daş adam sindromu”ndan əziyyət çəkən insanlarda zamanla bədəndəki əzələlər, vətərlər və birləşdirici toxumalar sümükləşir. Tibbi adı “Fibrodysplasia Ossificans Progressive (FOP)” olaraq bilinən bu xəstəlik dünyada 2 milyon insandan yalnız birində rast gəlinir, lakin hələ də müalicəsi yoxdur.

### “Qaçış sindromu”...

Bu xəstəliyə tutulan xəstələrin yüzdə 25-30-u ölüm riski yaşayır. “Qaçış sindromu” dünyada yalnız 60 nəfərdə rast gəlinib. Ayaqlarda şişmə və halsızlıq ilə başlayan xəstəlik nəfəs darlığı, təngnəfəslik, böyrəklərin fəaliyyətinin dayanması, təzyiqin enməsi və orqan çatışmazlığına səbəb ola bilir.

### Erkən yaşlanma

Tibbdə adı Progeriya olan erkən yaşlanma dünyada 5 milyonda bir görülən xəstəlikdir. Bu xəstəlik daşıyıcılarında zəka və beyin inkişafı normal olsa da, orqanlar və dəri sürətli şəkildə qocalır. Xəstələrin çoxu ən azı 15 yaşına qədər yaşaya bilir. Modern tibbdə müalicəsi olmayan Progeriyaya bu günə qədər 30 nəfərdə rast gəlinib.

Əlamətdar gün bizə xatırladır ki, insanı insan edən yalnız sağlam bədən deyil, başqasının ağrısını hiss edə bilən ürəkdir. Xəstəyə uzadılan hər bir əl, deyilən hər bir xoş söz, göstərilən hər bir anlayış bəzən ən güclü dərmandan da təsirli ola bilər. Bu günü qeyd edərkən gəlin təkcə xatırlamayaq, həm də dəyişək, münasibətimizi, davranışımızı və mərhəmət ölçümüzü...

*Yeganə BAYRAMOVA*

### Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4746**
**Sifariş: 215**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova